Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

IV cild

Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

IV cild

Bakı 2022

Redaktor:

**Məhərrəm Qasımlı**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, IV cild. Bakı, ADPU nəşriyyatı, 2022. - 512 səh.

Görkəmli şair, ədəbiyyatşünas, nasir, publisist, tərcüməçi Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, “Qızıl kəlmə”, “Qızıl qələm”, “Vətən”, “İlin ən yaxşı kitabı”, “Araz” və s. ədəbi mükafatların laureatı Rafiq Yusifoğlunun “Seçilmiş əsərləri”nin IV cildinə onun “Ayrılığın qəm hasarı” kitabındakı şeirlərinin bir qismi, “Həsrət sazağı”, “Sevdalı sabahlar”, “Eşqin qarlı yollarında” kitablarındakı poetik əsərləri daxil edilmişdir.

© $\frac{19479866}{1957(H)2022}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

**“Ayrılığın qəm hasarı” kitabından**

## PAYIZ YARPAĞI

Bir payız günü
bir sarı yarpaq kimi
uca-uca göylərdən
uça-uça gəlmisən
bizim dünyamıza.
Tale küləyi
səni qabağına qatıb,
neçə ildən sonra
gətirib mənim yanıma!
Gözlərində sevgi ulduzları
sayrışır,
elə bil od düşüb canıma.
Həsrətin
bir payız kədəri kimi
hopub qanıma.
Ömründə yarpaq görməyən
adam kimi
öpüb-qoxlamaq
istəyirəmsə səni,
qınama məni, qınama!
Sən olmasan,
qəlbimi həsrət
bəzəməz, əzizim!
Şair sevgisi
hər sevgiyə
bənzəməz, əzizim!

**11. 10. 2001**

## ŞAİR SEVGİSİ

“Mən ölüm məni sev!” – deyə
Şair heç kəsə yalvarmır.
İrəlidə sıldırım var,
Geri dönməyə yol varmı?

Baş aça bilmirsən məndən,
Ünvansız əsən küləyəm.
Nə insan kimi insanam,
Nə mələk kimi mələyəm.

Sənin də bəxtin beləymiş,
Kövrəlib dolmamısan ki?!
Bir dəlini sevdiyinə
Peşiman olmamısan ki?!

**09. 10. 2001**

* * *

Qoymursan
dodağımla dodağından
gül dərməyə.
İllərlə zillət çəkən ürəyimi
sevgi sevinciylə
güldürməyə!
Ürəyim titrəyir,
əllərim əsir,
səni sevən təkcə
dil deyil…
Əgər cürətin çatmırsa
nəyisə qurban verməyə,
deməli, məhəbbətin
kamil deyil…

Bir vaxt gələcək,
dodaqların çəkəcək
dodaqlarımın xiffətini.
Eşqi kamil olmayan
duya bilərmi
eşqin ləzzətini?
Sevgim hər şeyə qadirdi,
onu qadağalar da
yolundan döndərə
bilməyəcək.
Mənim ürəyimi
güldürə bilməyən,
ayrı bir sevgi gülzarından
gül dərə bilməyəcək!…

**16. 10. 2001**

* * *

Bilirəm,
nə gecən var,
nə gündüzün;
gizli bir atəşlə yanırsan.
Mənə söyləməyə
o qədər sözün var ki,
ancaq söyləməyə
utanırsan.
Dərd çəkən ürəyini
Tanrı özü güldürürsə,
sənin də gülməyə
haqqın çatmırmı, əzizim?!
Allahın ağıla saldığı sözü
bəndə içində boğub öldürürsə,
günaha batmırmı, əzizim?!

**16. 10. 2001**

# ÇƏTİR VƏ YAĞIŞ

Elə ki, sən yağışda
yola çıxarsan,
üstünə həsrətim
damcılar…
Mənim öpüşlərimdi, əzizim,
əlinə, üzünə, saçına düşən
damcılar…
…Havada tutursan sözümü,
gülüb deyirsən ki,
çətir götürüb,
yağışdan qoruyacam özümü!
Özünü yorma, əzizim,
fikirləş yaxşı-yaxşı:
bəndənin düzəltdiyi çətirlə
qarşısını almaq olarmı
Allahın göndərdiyi
yağışın?!

**16. 10. 2001**

* * *

"Bu nəğmələrdə
reallıq var" – deyə,
fikrimi azdırmaq üçün
sözlərini pərdələyirsən.
Əgər sənə
ilahi eşq lazımdırsa,
bəndəyə qovuşa bilmədiyini
niyə özünə
dərd eləyirsən?!

**16. 10. 2001**

* * *

Yarıciddi, yarızarafat
deyirsən ki,
səni çəkməyim
özümə sarı!
Yollarını gözləməkdən
çöküdbdür
gözümə sarı!
Aramızda əbədimi qalsın
hicran hasarı?!
Demirəm ki,
məni görəndə
qollarını geniş aç,
demirəm ki,
körpə uşaq kimi
yanıma qaç.
Əgər mənim içimdəsənsə,
səni özümə sarı çəkməyə
nə ehtiyac?!

**17. 10. 2001**

* * *

Kim inanar bizə
hər ayrılığa
hicran deyiriksə?!
Böyük sevgidən
danışmağa dəyərmi
iki bədəndə
bir can deyiliksə?!

**17. 10. 2001**

* * *

Deyirsən ki,
gəl bu eşqi
dərinləşdirməyək,
münasibətlərimiz
elə beləcə də qalsın,
uzun olsun deyə
sevgimizin ömrü…
Biz nə karəyik, əzizim?!
Bəndə üçün
qanun deyilmi
taleyin yazısı,
Tanrının əmri?!
Bir-birimizi görəndə
əlimiz, ayağımız
yerdən, göydən
üzülürsə,
hər gün qələmimin
sevdalı gözündən
damla-damla həsrətin
süzülürsə,
əriyib gilə-gilə
bir-birinə qovuşmaq
istəyirsə
iki ayrı dağ,
biz neyləyə bilərik?!
Sevəndə fikirləşib
sevmişdikmi,
Ayrılanda da fikirləşib
ayrılaq?!

**17. 10. 2001**

* * *

Sevdalı gözlərimizi
görən dost-tanış
təəccüblə barmağını
dişləyirsə,
deməli,
güvə düşüb
sirrimizə.
Əgər bu sevgi
gündən-günə
iliyimizə işləyirsə,
laqeyd qala bilərikmi
bir-birimizə?

**18. 10. 2001**

* * *

Dediyin sözlərlə
yerindən oynadırsan
dəymədüşər ürəyimi.
Qarşımda qoyulan qadağalar
daha da şiddətləndirir
sənə qovuşmaq diləyimi…
Əgər məni
uzaq eləməyə çalışsan
özündən,
gözümdə şimşəklər
çaxar, əzizim!
Topu yerə
nə qədər bərk vursan,
göyə bir o qədər
çox qalxar, əzizim!

**18. 10. 2001**

## BİLƏNDƏ Kİ

Dediyin ümid,
həsrət dolu sözlərlə
bəzəmisən sevgi odamı.
Biləndə ki, nə vaxtsa
bir-birimizə deməyə
sözümüz qalmayacaq,
hicran əzablarından
gözümüz dolmayacaq, –
dəhşət bürüyür adamı!

**18. 10. 2001**

* * *

Dediyin sözlərə görə
sənə mükafat çatır.
Ancaq heyf ki,
nə əlim əlinə,
nə dodaqlarım
dodaqlarına çatır!

**18. 10. 2001**

* * *

Həsrətimin rəngi – sarı,
Gözünün rəngi – qonur.
Sevgi yağışları yağır üstünə,
saçına, üzünə qonur…
həsrətli busələr bənzəyir
qızıla, altuna!
Onları xəzəl kimi səpmişəm
ayaqlarının altına!

**18. 10. 2001**

## SEVGİ MÜKAFATI

Xəyalən bəxtəvər
olmuşam,
incə qamətini
bağrıma basmışam!
Sözlərin məlhəm olub
ürəyimin çatına!
Bu qədər ki, sənə
həsrətli nəğmələr
yazmışam,
bəs nə zaman
layiq görüləcəyəm
sevgi mükafatına?!

**19. 10. 2001**

## ACI HƏQİQƏT

Mən səni sevən kimi
sən də məni sevə bilsən,
ömrümdə, həyatımda
ən qiymətli
bir inci olarsan!
Əgər sevməsən,
layiq bilməsən
özünü mənə,
yüzünə "əlvida!"
demişəm,
sən də
yüz birinci olarsan!...

**19. 10. 2001**

* * *

Deyəsən bu sevginin də
ağrıları, əzabları
havayı imiş, havayı.
Aramızda
heç nə yoxdu,
üç titrək nöqtədən
savayı…

**20. 10. 2001**

## PAYIZIN HƏSRƏT MAHNISI

Ayrılığın məni qoyub
pis günə,
həsrətin çevrilib dumana,
çiskinə…
Payızın hicran sazağında
üşüyürəm,
uçuşan xəzəllərə,
yağan yağışlara baxıb,
səni düşünürəm…
Bir cüt yarpağa
bənzəyən
həsrətli gözlərim
dikilib uzaqlara…
Baxışlarım
mizrab kimi toxunur
sarı simə bənzəyən
sarı yarpaqlara…
Payızla baş-başa
vermişəm,
xəbərim yoxdu
özümdən…

Yarpaq-yarpaq
həsrət mahnısı
çağlayır
həm payızın,
həm də mənim
gözümdən…

**26. 10. 2001**

## SONUNCU YARPAQ

Ömrün payızında bir yarpaq seçdim.
Eşqimi deməyə layiq söz hanı?!
Mən səni sevəndə hər şeydən keçdim,
Başlandı ömrümün sevda xəzanı.

Elə düşündüm ki, bəxtəvərəm mən,
Daha qəm buludu ola bilmərəm.
Cərgəyə düzmüsən sevdiklərini,
Mən sıra nəfəri ola bilmərəm.

Sən hələ cavansan, sevdalı qəlbin
Min çiçək bitirən torpaq kimidir.
Mənim sevgim isə budaqda əsən
Saralmış sonuncu yarpaq kimidir…

**10. 10. 2001**

## XƏZAN

Mən yalandan and içməyi sevmirəm,
Yalançıya qənim olar öz andı.
Gecə-gündüz həsrətinlə döyünən
Dəli könlüm bir divanə ozandı.

Bir vaxt eşqim oldu sənin gərəyin,
Sanki dağa arxalandı kürəyin,
İllər boyu buza dönən ürəyin
Sözlərimin istisinə qızındı.

Kül altında öləzidi közlərim,
Daha yatmır ürəyinə sözlərim,
Gözlərinə həsrət qaldı gözlərim,
Bu hicranın ömrü yaman uzandı.

Bir gün məni çağırarsan toyuna,
Həsrət-həsrət göz qoyaram boyuna,
Dözəmmədim ikibaşlı oyuna,
Mən uduzdum, görəsən kim qazandı?

Ayrılığın odu könül dağlayır,
Gözlərindən yaş bulaq tək çağlayır,
Payıza bax, yarpaq-yarpaq ağlayır,
Yusifoğlu, nə yatmısan, xəzandı…

**10. 10. 2001**

## BƏHANƏ

Xoşum gəlmir ki, bir işi
Mən görüm yarı-yarımçıq.
Qəlbi bütöv olan insan
Sevərmi yarı yarımçıq?!

Qısqanclıq yeyir içimi,
Qəlbimi yaxır intizar.
Soruşdum: – Əzizim, bəlkə
Sənin ayrı sevgilin var?

Yamanca acığı tutdu,
O qızın dediyim sözə.
“Mənim şəxsi həyatımın, -
Dedi, – nə dəxli var Sizə?”

Ucuzlar at çapan yerdə
Axı baha nə gəzirmiş?
Mənə acı söz deməyə
Bu qız bəhanə gəzirmiş…

**10. 10. 2001**

* * *

Bu qaydadır, ay doğanda günəş batır,
Yavrum, necə çətin olub gör işimiz?!
Hamı ilə görüşməyə vaxtın çatır,
Bəs nə vaxta qaldı bizim görüşümüz?

Utanırsan, ancaq sevgi deyil günah,
İnsan qəlbi məhəbbətsiz nur saçarmı?
Nə bilirsən nə olacaq bu gün-sabah? –
İnsan da öz qismətindən gen qaçarmı?

**10. 10. 2001**

## SINDIRMA MƏNİ

Qəlbin qəlbimlə döyünür,
Sən məndən kənar, yan durma!
Qısqanclıq odu dəhşətdi,
Yandırma məni, yandırma!

Kim sevir, qəlbində qəm var,
Sevgi yollarında çən var,
Əzizim, dost var, düşmən var,
Sındırma məni, sındırma!

**11. 10. 2001**

* * *

Ürəyim üşüyən qərib yurd yeri,
Sən uzaqda yanan isti ocaqsan.
Əgər götürməsəm sözümü geri, –
Deyirsən mənimlə qurtaracaqsan.

Şair nəfəsində haqqın nuru var,
Onun sözlərindən küsməzlər, gülüm!
Nə olsun əlində iti balta var,
Bar verən ağacı kəsməzlər, gülüm!

**11. 10. 2001**

## DEYƏSƏN BU SEVDA BİR İLĞIM İMİŞ

İşığı qəlbimi sevindirsə də,
Əlçatmaz göylərə əl atmışam mən.
Deyəsən bu sevgi bir ilğım imiş,
Aylarla özümü aldatmışam mən.

Həsrətin qəlbimdə bir daşa dönüb,
Tutub eşq göyünü dumanım, çənim.
Əgər bir busəyə layiq deyilsə,
Nəyimə gərəkdi o sevgi mənim?!

**13. 10. 2001**

## QARŞIDA SEVGİLƏR DURUR

Kimsə bilməsə də, Allahım bilir,
Sevda yollarında çox at çapmışam.
Mən elə bildim ki, onu görəndə
İllərlə gəzdiyim bir yar tapmışam.

Bu sevgi deyilmiş, sevinc deyilmiş,
İçimi dağıdan yalquzaq imiş.
Dizimə qüvvət ver, Ulu Yaradan,
Eşqimin yolları çox uzaq imiş!

Qarşıda sevgilər, sevinclər durur,
Üşüyən ruhuma od qatmalıyam.
Hələ səadətə qovuşmaq üçün
Neçə köhlən bağrı çatlatmalıyam…

**13. 10. 2001**

*** * ***

Bircə xoş söz deməyə də
Sən xəsislik eləyirsən.
Sözlərinlə ürəyimə
Qəm yağışı ələyirsən.

Həsrət yüklü nəğmələrim
Dönüb gürşada, leysana.
Bu səadət, bu xoşbəxtlik
Qismət olmur hər insana.

Yəqin elə bilirsən ki,
Hər şey belə olmalıdı.
Nəvaziş görməyən çiçək
Əvvəl-axır solmalıdı.

Bu eşqin böyüklüyünü
Duymursan hələ sən, gülüm!
Bəlkə məni itirəndə
Qədrimi biləsən, gülüm!

**14. 10. 2001**

**SÜRGÜN YERİ**

Ürəyim –
sevənlərə sığınacaq.
Kim dara düşsə,
gəlib ona sığınacaq!
Mənə pənah gətirir
atılanlar, qovulanlar…
Naşı bir ovçuya
ov olanlar…
Özgənin dərdini
özününkü bilib,
ürəyim şam kimi əridi…
Hərdən mənəelə gəlir ki,
qəlbim gözəllərin
vətəni deyil, sürgün yeridi…
Sən də özxoşuna
vətən seçməmisən ürəyimi,
çıxmısan dünyanın
boşundan, bərkindən…
Ancaq qəribədi:
sevgi bəraəti alanlar da
çıxıb getmək istəmir
bu sürgündən…

**26. 10. 2001**

* * *

Günaha batdım;
ilahi bir sevgiylə
qovrulduğumu dandım.
Sənə yandıq vermək
istəyirdim, özüm yandım!
Yeni-yeni işvələr,

yeni-yeni pıçıltılar
xoşuma gəlmədi mənim.
Təzə-təzə sevgilər
qərib şəhərlər kimi
ovundura bilmədi məni!
payız yarpağı kimi
titrəyirdi ürəyim
həsrətdən…
Doğma səsini eşidəndə
elə bil vətənə qayıtdım
qürbətdən…

**27. 10. 2001**

## HƏSRƏT NƏĞMƏSİ

Ayrı çarə axtarma,
sevgi dərdinə
vüsaldan başqa əlac yoxdu.
Əgər biliriksə
bir-birimizi sevirik,
danışmağa o qədər də
ehtiyac yoxdu.
Arabir zəng elə!
Sən xəttin o başında,
mən bu başında susaq…
Sevgiylə döyünən
qəlbimizin səsinəqulaq asaq…
Qaynar nəfəslər, ahlar
bir-biriyləpeyman bağlasın!
Damarlarımızda
həsrət nəğməsi çağlasın!

**28. 10. 2001**

## PAYIZ DONLU HƏSRƏT

Ayrılıq –
Demokl qılıncı kimi kəsib
başımızın üstünü,
payız buludu kimi dolmusan…
Heç yarpaqları saralmış
bir ağaca bənzəyəndə
dözə bilmirdim sənin həsrətinə, –
indi dünyanın özü boyda
payız olmusan…

**28. 10. 2001**

* * *

Xiyabanda sənsiz gəzirəm,
həsrətin, ayrılığın
dolubdur qəsdimə.
Payızın çəkdiyi ahlar
sarı-sarı yarpağa dönüb
səpilir üstümə…

**28. 10. 2001**

## SƏN DEMƏ

Yaxdı ürəyimi dediyi söz, –
yenə zəhləm getdi
özümün özümdən.
Xəyalən qurduğum
ilahi sevgi dünyası da
düşdü gözümdən…
Gör kimi qəlbimə
sirdaş sanmışam,
gör kimə əyilmişəm?!

Sən demə mən onun
könül diyarında
bir sarı yarpaq da
deyilmişəm…

**30. 12. 2001**

*** * ***

Məni layiq bilmədinsə
könül dünyana,
sevməyəni sevəndən
bir pillə yuxarı qaldırdınsa,
Tanrı heç zaman
köməyinəyetməyəcək!
Hər ləçəyi sənə
sevgi nəğməsi
oxuyan çiçəyi soldurdunsa,
səhraya çevriləcək
könül dünyan,
qoynunda qanqaldan,
tikandan başqa
heç nə bitməyəcək!

**31. 10. 2001**

## SEVGİ XƏZANI

Soyuqdan üşüyən
bir cüt yarpağa bənzəyir
sevgilimin əlləri.
Ömrümün payızında
əsdikcə hicran yelləri,
həsrətinin rənginə
boyanan şeirlərim
yarpaq-yarpaq tökülür…

Elə bil eşqimin
təzə üfüqlərində
dan yeri sökülür.
Kim poza bilər axı
alnımıza Tanrı yazanı?!
Nəfəsindən ürəyim
yarpaq kimi əsir,
deyəsən indicəbaşlayacaq
sevgi xəzanı…

**02. 11. 2001**

## BİR DƏ GÖRƏCƏKSƏN…

Həsrətin güvə tək içimi yeyib,
Mənə gülə-gülə hey söz atırsan.
"Gözəl günlərimiz öndədi", – deyib,
Vüsal günlərini sən uzadırsan…

Bir də görəcəksən durnalar köçüb,
Olub eşq gülləri vağam dünyada.
Bir də görəcəksən iş işdən keçib,
Bir də görəcəksən yoxam dünyada!…

Göylərdə buludlar qara geyəcək,
Çiçəklər hicrana dözməyəcəkdir.
Cığırlar mənimçün qəribsəyəcək,
Meşələr yolumu gözləyəcəkdir.

Qumlu sahillərə düşən titrək iz
Dalıb xəyallara düşünəcəkdir.
Yetimə dönəcək o boyda dəniz,
Göylərdə Ay özü üşüyəcəkdir.

Sevgilim alnına qoyub əlini,
Elə hey köksünü ötürəcəkdir.
Gözündən ələnən yarpaq selini
Küləklər üstümə gətirəcəkdir…

Qəbrimin üstündə güllər solacaq,
O qız bir də məndən küsməyəcəkdir.
Qara buludların gözü dolacaq,
Həsrət yağışları kəsməyəcəkdir…

**06. 11. 2001**

## SANKİ SƏNİ GÖRMƏMİŞƏM BİR İLDİ

Kor eləyib gözlərimi dumanlar,
Namərd əllər sənə tələ qurdumu?!
Düzmü çıxdı ürəyimə damanlar,
Çiçəyini quduz şaxta vurdumu?!

Neçə gündü yoxdu səsin, sorağın,
Bircə gündə yüz yol ölüb-dirildim.
His eləyir yoxsa ömür çırağın,
Eşqin barı yad əlləmi dərildi?!

Şübhə məni edib başı aşağı,
Sirdaşını aramırsan niyə sən?!
Bəbəyindən gildir-gildir yaş axır,
Göz yaşında qərq olacam deyəsən!

Söz deməyə halım yoxdu kimsəyə,
Üzüquylu çarpayıya sərildim.
Bələnmişəm yenə çənə, çisəyə,
Sanki səni görməmişəm bir ildi…

**10. 11. 2001**

## SƏN NARAHAT OLMA

Çoxdandı üzünü görmürəm sənin,
Bəzən düşünürəm: məndən qaçırsan.
Titrək tellərini hörmürəm sənin,
Bəlkə saçımdakı dəndən qaçırsan?!

Sevgim mane olsa səadətinə,
Onu öz içimdə boğa bilərəm.
Çoxları həsrətdi məhəbbətimə, -
Başqa bir üfüqdə doğa bilərəm…

Ürəyim eşq ilə gəlibdir dilə,
Əzizim, heç zaman tək olmamışam!
Sən narahat olma, öz sevgim ilə
Mən hələ kimsəyə yük olmamışam…

**11. 11. 2001**

## HİCRAN QIŞI

Həsərt dolu misralarımın
hər sözü bənzəyir bir altuna.
Şeirlərimi
xəzəl kimi səpmişəm
ayaqlarının altına…
Sevgi xəzanı bitib,
ürəyimdə bir gilə
köz qalmayıb…
Daha budaqlarımda yarpaq,
dodaqlarımda
sənə deyiləsi söz qalmayıb...
Yenidən əlvan çələng
toxuya bilmək üçün

ürəyim ümidləvurur hələ.
Yenidən sevgi nəğməsi
oxuya bilmək üçün
aramızda bir hicran qışı
durur hələ…

**17. 11. 2001**
**Qayabulaq**

## HİCRAN HASARI

Yollar sırsıra bağlayıb,
Qorxu düşüb
canıma.
Qar –
bir qarış
hicran hasarına dönüb,
üstündən aşıb
gələ bilmirəm
yanına!…

**18. 11. 2001**
**Qayabulaq**

## HİCRAN SAZAĞI

Sənin kimi yarı olan
Gərək yüz il yaşaya.
Ürəyində ömrü boyu
Sevgi, həsrət daşıya!

Qamətini qucaqlaya,
Saçına sığal çəkə!
Səhər-axşam arı olub,
Dodağından bal çəkə…

Mənim kimi yarı olan
Gərək bir az düşünə.
Ömrü boyu qarışmaya
Ürəyimin işinə!

Anlaya ki, eşqin ömrü
Beş-on ildi uzağı.
Əvvəl-axır göynədəcək
Onu hicran sazağı…

Əgər yaxına qoymasam,
Baxaram gendən sənə.
Özün düşün, yar olarmı,
Əzizim, məndən sənə?!

**24. 11. 2001**

## ŞANS

Deyirsən ki, mənim üçün
Heç vaxt şans verməyəcəksən.
Mənim sevgi güllərimi
Bir daha dərməyəcəksən.

Kim üzünə ağ olursa,
Tanrı ona bəla verir.
Şansı bəndə vermir, gülüm,
Şansı Allah-Təala verir…

**24. 11. 2001**

## SƏN NARAHAT OLMA

Bu qədər iztirab hədərmiş, hədər,
Heç zaman mənimçün gözün dolmayıb.
Deyirsən: iynənin ulduzu qədər
Sənə qovuşmağa güman qalmayıb.

Əsir ayrılığın soyuq yelləri,
Eşqimin yolları dirənib dağa.
Qəlbində solubmu sevgi gülləri?
Dilin necə qıydı könül çalmağa?!

Həsrətin gözümdə ulduza dönüb,
Qəlbini pərişan etməyəcəyəm.
Sən narahat olma, yarpıza dönüb,
Yuvanın ağzında bitməyəcəyəm…

**25. 11. 2001**

## GİZLİ BİR EŞQ DÜNYAMIZ VAR

Gizli bir eşq dünyamız var,
Səni gözləyirəm, tez gəl!
Orda bir kimsə yaşamır
Səndən başqa, məndən özgə!

Biz orda görüşən zaman
Ürəyimiz dinclik tapır.
Gülüm, hamının üzünə
Açılmır qırxıncı qapı.

O qapının arxasında
Həsrətimiz göz-gözədi.
Bizim sevgi güllərinin
Çiçəkləri təptəzədi…

Oxu atdın, heç olmasa
Yayı gizləmə, əzizim!
Tanrının mənə verdiyi
Payı gizləmə, əzizim!

Elə bilmə ürəyimdə
Gizli yanan ocaq sönüb.
Sənin qəlbin də mənimçün
Qırxıncı qapıya dönüb…

**26. 11. 2001**

## QIRXINCI QAPIYA DÖNÜB ÜRƏYİN

Üzünə bir zərif kölgə salıbdır,
Bir şeytan kələyi, namərd hiyləsi.
Deyirsən: qəlbində bir nisgil yatır,
Nə açılasıdı, nə deyiləsi.

Kimsəyə qıymırsan əzablarını,
Təsəlli, toxtaqlıq deyil gərəyin.
Qəlbinə süzülür gözünün yaşı,
Qırxıncı qapıya dönüb ürəyin.

Namərdlər daş basıb haqqın ağzına,
Könlünün harayı susdurulubdur.
Acı xatirələr kövrək qəlbinin
İçində mina tək basdırılıbdır.

Tanrı göndəribdir bəlkə də məni,
Səni oxşamağa, əzizləməyə.
Qadir olacaqmı görəsən eşqim
Qəlbini minadan təmizləməyə?!

**26. 11. 2001**

## YOXDU

Necə yazsan, gül-çiçəyin,
Necə qışsan, qarın yoxdu?!
Bir ağaca bənzəyirsən,
Nə kölgən, nə barın yoxdu…

Rəhmin gəlsin yalquzağa,
Qəlbimi atma sazağa,
Niyə qaçırsan üzağa,
Mənə etibarın yoxdu?!

**01. 12. 2001**

## AZAD SEVGİ

Özüm sevib seçmişəm,
Xoşum gəlib gözündən.
Mehriban baxışların
Ömrümə nur eləyir.
Daha çıxa bilmirəm
Sənin bircə sözündən,
Sevgi azaddı,
ancaq
Adamı qul eləyir…

**03. 12. 2001**

## SƏNİN PIÇILTILARIN

Sən zəng etdin, qəlbimin
Qapıları açıldı.
Məhəbbətlə yoğrulub,
Gülüm, sənin pıçıltın.

Hənirin gəlməyəndə
Yarpaq tək saralıram.
Pıçıltını dinləyib,
Mən yoxdan var oluram.

Ürəyimin başında
Közərən sevda sönməz.
Əgər sevgi olmasa,
Səs pıçıltıya dönməz.

Məni bəxtəvər edir
Bircə oğrun baxışın.
Pıçıltıların dönüb,
Olur sevgi yağışı.

Səpilir ürəyimə,
Qanıma hopur mənim.
Sevda dolu nəfəsin
Canıma hopur mənim.

Sözlərini eşidib,
Arzular qönçələyir.
Sevdalı ürəyimdə
Həsrətin gecələyir.

Mənə zəng eləyirsən,
Qəlbim sarı sim olur.
Sənin pıçıltıların
Məhəbbət himnim olur…

**05. 12. 2001**

* * *

"Şeir yaza bilmirəm" –
pıçıltıyla deyirdim.
Gülümsündün: – Pıçıltı
Elə özü şeirdi…

**23. 12. 2001**

## BİR SEHRLİ YAĞIŞ YAĞIR

Gözlərim buluda dönüb,
Gözlərini görən andan.
Bir sehrli yağış yağır,
Qorunmaq dilərsən ondan.

Üz-gözün su içindədi,
Ürəyimdə tufan qopur.
Üstünə yağmır bu yağış,
Canına, qanına hopur!

Bəxtəvərə çevrilmişəm
Sevda dolu baxışından.
Çətirlə qorunmaq olmaz,
Gülüm, sevgi yağışından!…

**05. 12. 2001**

## SEVDA YOLU

Mənim şeirlərim –
bizim birgə keçdiyimiz
yoldu;
qoynunda sevgi də,
sevinc də boldu!

Oxuyuram
sənə yazdığım nəğmələri
qəlbim titrəyə-titrəyə,
öyünə-öyünə!
Şərəfli bir
yol keçmişik, əzizim,
qol-qola, çiyin-çiyinə!

**06. 12. 2001**

## SİRDAŞ

Qəlbini illər
boyu göynədən
o sirri bilib,
bir daş olacam!
Sonra
ömrümün sonunacan
səninlə
sirdaş olacam!…

**09. 12. 2001**

*** * ***

Deyirsən:
o dünyada belə
ürəklərimiz sevgi ilə
dinəcək!
İkimiz cəhənnəmin
bir küncündə
görüşsək belə,
ora cənnətə
dönəcək!

**09. 12. 2001**

* * *

Əvvəl-axır
dəyişəcəyik dünyamızı,
Allah əmridi ölüm!
“Qocalana qədər
yaşamaq istəyirəm,” –
deyirsən,
Ürəyində məhəbbət olan
qocalmır ki, gülüm!

**14. 12. 2001**

* * *

Qorxuram ki,
bir ülvi məhəbbət
kama yetməmiş
can verə
qollarımın üstündə!
Sənin qadağaların
şlaqbaum kimi
dayanıb
sevgi yollarımın
üstündə…

**16. 12. 2001**

* * *

Eşqimizin oduna  əriyirəm
gilə-gilə,için-için.
Dilim inkar etsə də,
saçlarım darıxıb,
əllərinizin sığalı üçün!
Külək üzünüzə
toxunduranda tellərimi,
qorxub səksənmişəm hər dəfə.

Sizə özüm vermişdim
ürəyimi, əllərimi,
İndi də saçlarım keçib
Siz tərəfə…

**16. 12. 2001**

* * *

Məndən ayrılanda
ürəyimə
qəm buludu çökər,
Həsrətin gözlərimdə
çiçəkləyib
puçur-puçur…
Ürəyini özün
vermisənsə əgər,
Qamətin
nə haqq ilə
məndən qaçır?!

**16. 12. 2001**

* * *

Dedim ki,
dəniz kədərlidi bu gün!
Dəstəkdə səsimi eşidib
udqundun…
Pıçıltıyla söylədin ki,
elə mənim sevgim də
tutqundu…
Sözlərinlə ürəyimi dağlama!
Hönkür-hönkür ağla
gözlərin həsrətdən
dolubsa!
Ömrümüzün işıqlı tərəfi

bircə məhəbbətimizdi,
axırımız necə olacaq,
onun da üstünü
bulud alıbsa?

**16. 12. 2001**

*** * ***

Məni sevsən belə
şirin əzab verməkdən
doymursan.
Səni öpənləri
ürəyinə yaxın qoymurdun,
ürəyinə buraxdığını da
səni öpməyə
qoymursan!

**23. 12. 2001**

## YARPAQ VƏ XƏZƏL

Sən – bu baharın
yarpağı,
Mən – ötən payızın
xəzəliyəm.
İstəyirəm
ömrümü, həyatımı
sevginlə təzələyəm!
Sən budaqdasan,
Mən torpaqda.
Baxırsan mənə
yuxarıdan aşağı!
Ürəyində budağın hərarəti,
Gözlərində günəşin işığı.
Sən mənə yuxarıdan
aşağı baxanda

xəcalətimdən torpağın altına
girmək istəyirəm mən fağır!
Amma bilirəm ki,
sən də mənim yanıma
düşəcəksən əvvəl-axır…
Torpaq əjdaha kimi hazırdı
ağzını açıb, ov udmağa!
Ancaq bilmirəm o vaxt
dilim söz tutacaqmı
səni əzizləməyə,
səni ovutmağa?!

**11. 12. 2001**

* * *

Özümdə, sözümdə deyiləm,
bir təhər olmuşam.
Qəlbim göyür-göyür göynəyir
həsrət közündən.
Qara bulud kimi dolmuşam,
indicə şeir ələnəcək
həsrət gözümdən…

**27. 12. 2001**

* * *

İnsan ağrılar,
əzablar çəkəndə
bərkiyir,
mətin olur.
Niyə könlümüz istəyənə
qovuşmaq
bu qədər çətin olur?!
Bir gün
ağrılar çəkən ürəyin
sevdalı qəlbimin
həsrətini duyacaq.

O gün ayrılığın
qəm hasarını
vüsalın göz yaşları
yuyacaq…

**27. 12. 2001**

* * *

Dərdə ürəyində
yer qalmasın deyə
qoy ürəyinəmən çöküm!
O boyda dərdi
tək götürəbilməzsən,
Yarısını da ver
mən çəkim!…

**27. 12. 2001**

## QƏFƏSDƏKİ BÜLBÜL

Deyirsən: – Niyə mənimçün
Şeir yazmırsınız daha?!
– Şeirimin misrası ucuz,
Saçının bir teli baha!

Bilmirəm heç nə söyləyim,
Necə başa salım səni?!
Deyəsən narahat etmir
Bu pəjmürdə halım səni?!

Nə əmr eləsən, hazıram,
Ürəyim sənə sadağa.
Sevən üçün nədir axı
Bu qədər qoruq-qadağa?!

Dözmək olmur nəfəsindən
Gələndə hicran qoxusu.
Qəfəsdəki bülbül necə
Sevgi nəğməsi oxusun?!

**16. 12. 2001**

* * *

Deyirsən ki, arxayın ol, mən özümü
Yad nəfəsdən ömrüm boyu qoruyacam.
Bu dünyanın ən ilahi sözlərini
Sizin üçün axtaracam, arayacam.

Dilindəki qadağalar qərarını
Zorla bizə sırımağın nə mənası?
O şeyi ki, mənə vermək istəmirsən,
Axı onu qorumağın nə mənası?!

**20. 12. 2001**

## TƏNHALIQ

Vüqarlı olmuşam həmişə,
Haqqım yox kimsəyə əyiləm.
Gözümdə dəyişib bu aləm,
Özümdə, sözümdə deyiləm.

Bu nədi başıma gətirdin,
Ay ürək, yerinə utanım!
Zülmətə qərq olur varlığım,
Yoxmu birköməyə çatanım?!

Yorulmur arzular karvanı,
Ömrünə yol gəlir nəvələr.
Tay-tuşun deyil ki, qönçələr,
Kimsən ki, səni də sevələr?!

Qəlbinə ögeyi düşünüb,
Xəyala dalmağa dəyərmi?!
Sevməyən kimsədən yapışıb,
Qır-saqqız olmağa dəyərmi?!

Bərq vuran kəhkəşan içində
Titrəyən, üşüyən ulduzam.
Doğmalar tərk etdi qəlbimi,
Tənhayam, qəribəm, yalqızam!

Elə bil sərgərdan qalmışam,
Bir evim, odam yox dünyada.
Sanıram mənim tək kimsəsiz,
Tənha bir adam yox dünyada…

Heç kəsdən, heç kimdən incimə,
Özün tək duyacaq kim səni?1
Uca tut başını həmişə,
Əyilmə önündə kimsənin!

**28. 12. 2001**

* * *

Məni özgəyə bənzətmə,
Mən havadan nəm çəkənəm.
Taleyim belə gətirib,
Ömrüm boyu qəm çəkənəm.

Bəbəyimdə şimşək çaxır,
İçimə yağışlar yağır.
Təbəssüm neyləsin axı
Ürəyinə qəm çökənə?!

Şair könlünü alanın
Ürəyində od qalanır.
Mənə biganə olanın
Üstündən qələm çəkənəm!

**29. 12. 2001**

* * *

Tale sevdalı könlümü
Yenə kama yetirmədi.
Bu sevgi də ürəyimə
Dinclik, sevinc gətirmədi.

Sevda dolu ürəyimə
Yenə həsrət qənim oldu.
Bu eşqin sevinci sənin,
Qəmi yenə mənim oldu…

**29. 12. 2001**

* * *

Qəlbimdə nə qədər
həyəcan,
iztirab var!
Ürəyimi
ötən sevgilərdən
təmizləyir
bu iztirablar…

**29. 12. 2001**

* * *

Təbəssümün
yaz günəşi kimi
içimdəki selləri daşdırıb.
Üzüm həmişə gülsə də,

gözlərimin dərinliyində
kədər bardaş qurub…
Ürəyimin başında
bir nakam məhəbbət
ağlayır.
İçimdə həsrət selləri
çağlayır…
Kənardan baxanlar
mənə qibtə edirlər.
İçimdəki qəmi
görməsinlər deyə
yerə dikirəmgözümü.
Çölüm özgəni yandırır,
içim özümü!

**29. 12. 2001**

*** * ***

– Qəlbimi unutsan,
Dünyadan mən
nakam köçərəm.
Əlimdən sən tutsan,
odların içindən belə
rahatca keçərəm!
– Eşqimizin xətrinə
hər şeyə dözəcəm,
ağrıları, əzabları udacam.
Ürəyinizi sıxmayın,
hələ Sizin əlinizdən
çox tutacam…

**29. 12. 2001**

## DEDİM, DEDİN…

Dedim: – Məndən gen qaçırsan,
Meylimi sözə vermişəm.
Dedin: – Neynim, bir qəlbim var,
Onu da Sizə vermişəm!

Dedim: – Mənə biganəsən,
Göz yaşım qəlbimə axır.
Dedin: – Bizim sevgimizə
Hamı qibtə ilə baxır!

Dedim: – Tənhayam, yalqızam,
Ah çəkmək olubdur peşəm.
– Niyə elə danışırsız? –
Dedin:– Məgər mən ölmüşəm?!

Dedim: – Sən məni sevmirsən,
Könülmü vermisən yada?!
Hərdən elə sanıram ki,
Kimsəsizəm bu dünyada!

Dedin: – Məni hirsləndirmə,
Sərhədləri keçərəm, ha!
Yığıb şəpür-şüpürümü
Evinizə köçərəm, ha!

Sözlərinlə öləziyən
Sevgi odunu yandırdın.
Dedim, dedin…
Axır ki, sən
Sevdiyini inandırdın!

**30. 12. 2001**

## BU NƏ SEVGİDİ, İLAHİ?!

Sevgidə insan qəlbini
Oynatmaq qüdrəti varmış!
Dəryaları, dənizləri
Qaynatmaq qüdrəti varmış!

Yar olub yaylaq sahibi,
Yaxına qoymur köçümü.
Bu nə sevgidi, İlahi,
Göynədir mənim içimi?!

Təbiət başdan-ayağa
Həsrət renginə boyanıb.
Ay bir sarı yarpaq kimi
Başımın üstə dayanıb.

Əsəcək xəzan yelləri,
Solacaq neçə gül-çiçək.
Ürəyim bir yarpaq kimi
Onun ovcuna düşəcək…

**02. 01. 2002**

* * *

Ay mənim əzizim,
Ay mənim sevgilim!
Qəlbim qan ağlayır,
Sən məni sev, gülüm!

**02. 01. 2002**

* * *

İlk dəfəydi doğum günü
Bu qədər sevindiyim.
Məni riqqətə gətirdi
Ürəkdən sevildiyim.

Diqqətin məni kövrəltdi
Qəmli gözlərim doldu.
Ad günümdə sənin özün
Mənə hədiyyə oldun!

**02. 01. 2002**

## ƏZİZLƏRİN SIRASINDA

Özgəyə "əzizim" dedim,
Tutuldu, sevgilim, üzün…
Unutma, bircə adama
Deyilir "sevgilim" sözü.

Necə gizləyim, danmıram,
Əzizlərim çoxdu mənim.
Əzizlərin sırasında
Səndən doğmam yoxdu mənim.

Məhəbbətim tərtəmizdi,
Mirvaridi, dürdanədi.
Həyatda əzizim çoxdu,
Sevgilimsə bir dənədi…

**03. 01. 2002**

* * *

Sevdiyim ailəm,
oğul-uşağım var.
Neçə-neçə qaranlıq ürəyə
nur çiləyən işığım var.
Maşınım, vəzifəm,
evim-eşiyim,
xətir-hörmətim…
Köksümə meydan oxuyan
tükənməz məhəbbətim!
Məni sevənlərin
yoxdu sayı-hesabı.
Ömrümə bəzək olub
sevgi nəşəsi, həsrət  əzabı.
Ömür karvanım
əbədiyyətə yol gedir
yavaş-yavaş, bala-bala.
Ancaq duyuram ki,
heç nəyim yoxdu
hər şeyim ola-ola!

**04. 01. 2002**

## NƏ VAXTSA

Nə vaxtsa sevdalı ürəyimin
odu sönəcək.
Sən məni itirəndən sonra
həsrət dolu nəğmələrim
sirdaşına dönəcək…
Şeirlərimin hər misrasını,
hər sözünü
əllərin sığallayacaq,
gözlərin öpəcək…

Bəbəklərin onların üstünə
sevgi yağışı səpəcək.
O yağışın hər giləsi
sevənlərə paylanacaq.
Hər kəlməmin,
hər sözümün yerindən
nisgil göyərəcək,
həsrət boylanacaq…

**04. 01. 2002**

* * *

Eşitdim ki,
“Şairlərdə nəsə çatışmır”, –
demisən.
Elə ona görə
ömrümüz boyu
axtarırıq
nəyisə, kimisə…
Sahib ola bilsəydik
sevdiyimiz əllərə.
Dərd bizi Məcnun
eləyib salardımı çöllərə?!

* * *

Şeirlərim həmişə
oxşamır könlünü,
sözlərim duyulmur
ilk anda.
Ürəyin özü də
torpaq kimidi;
çiçək də bitirir,
qaratikan da…

* * *

Adicə bir meh bilirsən
ciyərimdən qopan
həsrət küləyini.
"Bu qədər şeir olarmı?" –
deyirsən!
Ülvi sevgiylə yoğrulan
nəğmələrim belə
oxşamır ürəyini!
İtib qalmısan güllərin
bolluğu içində.
Dörd yanın
çəmənzar ola-ola
bomboz bir səhra var
içində…

* * *

"Gör kimi özümə
əsir eləmişəm" – deyə
rişxənd etsən həsrətinlə
yoğrulan misralara,
ömrümün qışı
heç vaxt dönməyəcək
üzü bahara.

* * *

Unutma ki,
ilahi bir sevgidi
qəlbimi qəlbinə
bənd edən.
Tanrı özü
intiqam almazmı
bəxşişini qəbul etməyən
bəndədən?

* * *

İstəmirsən sənə zəng edim,
oturub-durduğun adamlar
qəzəblənə,
gülüşə bilər!–
Telefonun da
ürəyin kimidi,
ona ancaq əzizlərin
düşə bilər…

* * *

Dərd vəfalıdı,
sevinc namərd olur!
Sən qəlbimdən
çıxan kimi,
ürəyimə dərd dolur…

* * *

Meylimiz ayrı-ayrı
yerdədi,
arabir yarı düşünüb,
yarı ansaq da!
Hərəmizin öz
yolumuz var,
Bir-birimiz üçün
yaransaq da…

* * *

Bir gün
içindən boylanan
həsrətin əlindən
qurtara bilməyəcəksən!
Perikən bir sevgini,
küsüb gedən baharı
yenidən qəlbinə
qaytara bilməyəcəksən!

* * *

Özgə gözəlləri görəndə
elə bil içimdə sevgi gülləri
solur, quruyur…
Sənə olan məhəbbətim
məni sevgi tufanlarından
hifz eləyir, qoruyur…

**05. 01. 2002**

* * *

İlk dəfə dərk elədim ki,
Müəmmasan başdan-başa!
Özün çox gənc olsan belə,
Başın dəyib daşdan-daşa.

Sevən qəlbim döndü buza,
Ömür yarı, mənzil uzaq…
Sənin ömrün gedir yaza,
Mənim ömrüm üzü qışa!

Kaş xəzanın bahar olsun!
Sevgi bağında bar olsun!
Qəlbin sevincə yar olsun,
Bəxtiyar ol, xoşbəxt yaşa!

* * *

– Gözün kimisə axtarır,
Mənə desən də "sevgilim"!
Ürəyi zorlamaq olmaz,
Kimi sevirsən sev, gülüm!

– Sevgiylə dolu gözlərim
Hara baxsa, Sizi görür.
Mənim sevda gülzarıma
Düşən titrək izi görür.

Belə sözlər eşidəndə
Göz yaşım qəlbimə axır.
Özgəsini necə sevsin
Sizə könül verən axı?!

**06. 01. 2002**

## GƏL VİDALAŞAQ

İstəmirsən ki,
sənin keçmişini öyrənim,
ürəyimə kölgə düşsün!
İstəmirsən ki,
bəmbəyaz bir
sevginin üstünə
qara ləkə düşsün!
Gəl vidalaşaq,
apardığın ikibaşlı
oyundusa!
Gəl vidalaşaq,
sənin təzə telefonun da
sənin keçmişinlə
qol-boyundusa!...
Qorxursansa təzə eşqinə
köhnə dostlarının
güləcəyindən,
söhbət ola bilərmi
bu eşqin işıqlı
gələcəyindən?!

**09. 01. 2002**

* * *

Suallarımı
cavabsız qoyub,
gözlərini döyürsən.
“Sizi ona görə seçdim ki,
qaranlıq keçmişimlə
maraqlanmayasınız” –
deyirsən.
Sözlərinlə ürəyimə
ağrı, əzab ələyirsən.
Bilmirəm sən məni
nə hesab eləyirsən?!

**09. 01. 2002**

* * *

Ürəyini aç söylə!
Ən qaranlıq dünyada belə
nur tapmaq olar.
Xərabələr üstündə də
Eşq məbədi
yapmaq olar.
Qəlbini dərd
göynətməyənin
gözləri belə
dola bilməz axı!
Qaranlıq bir dünya
işıqlı sevgi abidəsinin
postamenti
ola bilməz axı!!!

**09. 01. 2002**

## SƏNİN CAVABIN

Yazırsan ki, gəl vidalaşaq! –
Sözlərin tikanlı oxdu.
Özün də bilirsən ki,
sevgidə geriyə yol yoxdu…
Əvvəl-axır məcrasına dönəcək,
olsa da gur çayların
coşub-daşmağı.
Bəlkə yuxunda görəsən
mənimlə vidalaşmağı!

**11. 01. 2002**

## “SİZ”DƏN “SƏN”Ə

Sən mənə “sən” dedin,
Arzular gül açdı.
Köksümdə ürəyim
Danışdı, dil açdı.

Gözəlmiş gecikən
Baharın gəlməsi.
Qaranquşa döndü
O ilk “sən” kəlməsi.

O söz gələcəkdən
Müjdələr gətirdi.
Bomboz bir səhrada
Çiçəklər bitirdi.

Qoruyaq bu eşqi
Gərək sona qədər.
Uzun bir yol keçdik,
“Siz”dən “sən”ə qədər…

**13. 01. 2002**

* * *

Deyəsən sevdalı qəlbimə
işgəncə verməkdən
doymayacaqsan!
Məni ömrünün
sonuna kimi
dinc qoymayacaqsan!
Gülüb deyirsən ki,
əvvəl-axır mən də
öləcəyəm!
Səni tək qoya
bilmərəm,
o dünyada belə
yanına gələcəyəm!

**14. 01. 2002**

## UNUTMA Kİ...

Sevgim buz dağlarını
Əritməyə qadirdi.
Nəfəsim ölən eşqi
Diriltməyə qadirdi.

Təmiz bir məhəbbəti
Pərdələməyə dəyməz.
Xırdaca qayğıları
Dərd eləməyə dəyməz.

Tökmə qaş-qabağını,
Həmişə sev, gülümsə!
Heç zaman unutma ki,
Sən mənim sevgilimsən!

**15. 01. 2002**

* * *

– Mənim təşnə dodaqlarım,
Niyə könül qırırsınız?
Sevgilimlə aramızı
Yaman tez-tez vurursunuz.

– Bizim günahımız yoxdu,
Tərtəmizik, dupduruyuq.
Sözün var, ürəyinə de! –
Biz kimik, buyrıq quluyuq!

**18. 01. 2002**

## SEVİRSƏ…

Yenə ayrılıq oxunu
Gözlərimə tuşlayacaq.
Yenə mənim dəli könlüm
Təlatümə başlayacaq.

Yar tapmışdım ürəyimcə,
Özü zərif, ruhu incə.
Açılmamış solan qönçə
Gedib harda qışlayacaq?!

Bir gün müjdə göndərəcək,
Ürəyimi dindirəcək.
Sevmirsə, üz döndərəcək,
Sevirsə, bağışlayacaq…

**18. 01. 2002**

## SİZİN ŞEİRLƏRİNİZ

Sizə bərk acığım tutub,
Hiddətim –
bir dalğalı dənizdi…
Ürəyimi qəmlərəbələyən də,
kirpiklərimə yaş ələyən də,
məni göz yaşları içində
bəxtəvər eləyən də
Sizin şeirlərinizdi…
Şeir – mənim ürəyimi
xəzan yarpağına döndərib.
Həyəcanlarım,
iztirablarım sonsuz…
Həm şeirənifrət eləyirəm,
həm dəyaşaya bilmirəm onsuz…

**20. 01. 2002**

* * *

Bəndə onun qədrini bilməz,
Sevgi –
bir ilahi nemətdi!
Sənin hərəkətlərin
Mənim məhəbbətimə
verdiyin qiymətdi…

**21. 01. 2002**

* * *

Sevgi iliyimizə işləyib,
Ürəyimiz tutulub şirin bir dərdə.
Nə bir-birimizdən ayrı
yaşaya bilirik,
nə də bir yerdə…

**25. 01. 2002**

* * *

Sən mənə
taleyin göndərdiyi
hədiyyəsən.
Acığın tutanda da
istəmirsən ki,
xətrimə dəyəsən.
Ona görətelefonda
sağollaşanda beləsoruşursan:
– İncimirsiniz ki?!
– Öyrəncəkliym, gülüm,
ömrüm boyu incidilirəm…
Mənə atdığın kinayə daşlarını da
inci bilirəm…

**29. 01. 2002**

## SƏN HİRSLƏNƏNDƏ

Sən bircə anda
qara bulud kimi
dolurmuşsan!
Sən hirslənəndə də
gözəl olurmuşsan!
Ürəyimdə əkdiyin
sevgi çiçəkləri
həmişəyaşardı,
solmazdı…
Yəqin ki,
belə hirslənməsəydin,
məni bu qədər
sevdiyini də
boynuna almazdın…

**29. 01. 2002**

## ÖMRÜM BOYU

Elə güclü bir hissdi ki,
Sənə qovuşmaq diləyim,
Az qalır köksümdən qopub,
Köksünə girə ürəyim.

O teli öpüb qoxlamaq
Qismətim deyilsə əgər,
Necə deyim ki, xoşbəxtəm,
Xoşbəxt belə olur məgər?!

Necə deyim bəxtəvərəm,
Qapım yad əllə döyülsə.
O dodaqlar, o yanaqlar
O əllər mənim deyilsə?!

Gözlərinin həsrətindən
Gözlərimə zülmət çökür.
Tanrı yaradan sevgiyə
Bəndə niyə sərhəd çəkir?!

Ayrılığın qəm hasarı
Ürəyimə dağ çəkəcək.
Ömrüm boyu ay üzünə
Gendən baxıb ah çəkəcəm?!

**25. 01. 2002**

## QALIB

Eşq ocağı sönməyibdir,
Kül altında közü qalıb.
Səndən küssə də, o qızın
Yollarında gözü qalıb.

Bərkə çəkməzlər küsəni,
Xoşbəxt anındı bu sənin.
Dodağında o busənin
Pozulmayan izi qalıb.

Sevgilini bir də sına,
Qıyma bu eşq yetsin sona!
Ürəyinin hələ ona
Deyilməmiş sözü qalıb…

**28. 01. 2002**

## QORXURAM TƏZƏDƏN KÜSƏ

Necə gedim irəliyə,
Dörd yan tir-tikan, daş-kəsək?!
Dözməliyəm hər ağrıya,
Eşqin yolu olmur kəsə.

Söz titrəyir dodağımda,
Xəzandı həsrət bağımda,
Eşqin uca budağında
Könlüm qalıb əsə-əsə.

Qəlb məni tələsdiribdir,
Üstümü dərd kəsdiribdir,
Sevgilimi küsdürübdür
Bir vədəsiz titrək busə.

Bir vaxt danışmaz, susardım,
Qəlbimə qulaq asardım,
Onu bağrıma basardım,
Qorxuram təzədən küsə…

**28. 01. 2002**

## BİR SEVDA BAĞI SALMIŞAM

Qorxursan ötən səhvləri
Bir də təkrar eləməkdən.
Dilim olub dilim-dilim,
Sənə uğur diləməkdən.

Keçmişini dərd eləmə,
Getmə belə fikirə sən.
Mənim üçün mələk kimi
Tərtəmizsən, bakirəsən.

Həsrət ciyərimdən qopan
Adicə bir nəfəs deyil.
Özün yaxşı bilirsən ki,
Bu, ötəri həvəs deyil.

Bir sevda bağı salmışam,
Əməyimi zay eləmə!
Mələkxislət bir şairi
Hər yetənə tay eləmə!

**28. 01. 2002**

## SƏNİN İNTİQAMIN

Mənim çat-çat ürəyimə yağış yağır narın-narın,
Təbəssümün qəlbimdəki yaralara sığal imiş.
Məhəbbətdən maya tutan həsrət donlu misraların
Hədiyyəsi dodağından qopan bircə "sağ ol" imiş…

Yağan yağış neyləyəcək axı vaxtsız solan gülə?
Üzdə toxdaq görünsən də, bulud kimi dolurmuşsan.
Deməyəsən acıqlanıb, o quruca "sağ ol" ilə
Sevda dolu ürəyimdən sən intiqam alırmışsan!

**29. 01. 2002**

## FIRTINALAR ADASI

Torpaq ömrü, ağac ömrü deyil bizim gərəyimiz,
Dözə bilməz insan oğlu gecə-gündüz deyinməsə.
Ömrümüz yetəcək sona, sevda dolu ürəyimiz
Qəfəsdəki bir quş kimi çırpınmasa, döyünməsə!

Öz içimdə boğuluram, haray hara çatasıdı,
Sevgi əsir eləyibmiş cavanları, qocaları.
Elə bil ki, mənim qəlbim fırtınalar adasıdı,
Döyəcləyir gecə-gündüz onu sevda tufanları.

Bəxtəvərəm, dodağımda məhəbbətin şirin barı,
Sənin sevgin ürəyimdə dəniz kimi ləpələnir.
O tufanın, qasırğanın coşub-daşan dalğaları
Səadət tək gecə-gündüz ürəyimə səpələnir…

**29. 01. 2002**

## BİR SƏADƏT QUŞU UÇUR

Ömür üzü qışa gedir,
Arzularsa puçur-puçur.
Nə vaxtdı başım üstündə
Bir səadət quşu uçur…

Ürəyim də qanad çalıb,
Ona qoşulmaq istəyir.
Qəlbinə sevgi düşəndə
Adam quş olmaq istəyir.

Sevgi alın yazısıdı,
İnsana öz bəxti yardı!
Göylər necə laciverddi,
Qəlbim necə bəxtiyardı!

Məhəbbətim qönçələyib,
Ürəyim bir yanar ocaq.
Bilmirəm o sehrli quş
Çiynimə nə vaxt qonacaq?!

Ömür üzü qışa gedir,
Arzularsa puçur-puçur.
Nə vaxtdı başım üstündə
Bir səadət quşu uçur…

**29. 01. 2002**

## DÖRD MİSRA MƏHƏBBƏT

Gülüm, elə bil ki,
Ürək otaqdı.
Qəm ev sahibidi,
Sevinc qonaqdı…

***

Sahilə atılan
tənha qayıq tək
Bədbəxtdi sevgisiz,
duyğusuz ürək.

***

Od var ki, üfürəndə
Bircə anda sönəcək.
Od da var nəfəsimlə
Alovlara dönəcək…

***

Elə bilmə qəlbi daşam,
Məhəbbət könül tacımdı.
Gözündə bir qətrə yaşam,
Kirpiyin dar ağacımdı…

***

Bir ağacam, barımsan,
Dövlətimsən, varımsan.
Bəs bu necə sevgidi,
Nə atam, nə yarımsan?

***

Göz yaşım dürdü, incidi,
Könlüm dilindən incədi.
Ürəyimə dəymə, gözəl,
Ruhum telindən incədi…

***

Gəlmişdi şirin bal çəkə,
Bu diləyi duymadılar.
İnsafsızlar ac arını
Gülə yaxın qoymadılar…

***

Mən gəlmişəm sənin sevgi
Gülşənindən gül dərməyə.
Əzablar çəkən qəlbini
Öz eşqimlə güldürməyə…

***

Eşqimizə göz olaram,
Ocağında köz olaram.
Xəyalın mənimlədisə,
Mən necə sənsiz olaram?

***

Gizlicə-gizlicə yandın,
Necə oldu məni andın?
And içmişdin sevməyəsən,
Bəs hayanda qaldı andın?

***

Şimşək vuran palıdam mən,
Səni çətin unudam mən.
Üstünə sevgi yağışı
Səpələyən buludam mən.

***

Qəlbində şimşək çaxdımı?
Gözündən sellər axdımı?
Sənin sevgi gülşənində
Mənim gül payım yoxdumu?

***

Arzular çağıranda
Heç vaxt olmur yol gödək.
Min bahar qatarına
Səadətə yol gedək…

***

Yaranandan ölənəcən
Sevgiyə möhtacdı könül.
Onu doyurmaq çətindi,
Ömür boyu acdı könül…

***

Özgələrə meyl eləyib,
Niyə ürəyimi sıxdın?
Qəlbimə sevgi tək girdin,
Qəlbimdən tikan tək çıxdın…

***

Çıxma mənim sözümdən,
Səhralar çiçəkləsin.
Sevdalı ürəyimi
Qoyma həsrət təkləsin.

***

Şimşək kimi çaxıb getdi,
Dincliyimi daşa çaldı.
Sevdiyim qız çıxıb getdi,
Dərdimlə baş-başa qaldım…

***

Ürəkdə həsrət yükü daşımaq
Məhəbbət deyil, bəs nədi?
Baxışlarının altında yaşamaq
Səadət deyil, bəs nədi?

***

Belə də sevgili olar,
Heç bilmirəm qəsdi nədi?
Onunla bütün davamız
Bircə şeyin üstündədi…

***

Axı sənə neyləmişəm,
Üzün dönüb nədən ötrü?
Hər cəza çəkməyə dəyər
O dadlı busədən ötrü…

***

Sifətimə baxıb gördün
İçimdə fırtına var.
Məhəbbətlə gülümsədin,
Yatdı o burulğanlar…

***

Olub sevgilərdən şan-şan ürəyim,
Qazanıb neçə qız məhəbbətini.
Bircə təbəssümlə coşan ürəyim
Tapa biləcəkmi səadətini?

***

Hər insana qismət olmur səadət,
Qaragünlü ağ gün görə bilərmi?
Bir busəylə alt-üst olan məhəbbət
Tufanlara sinə gərə bilərmi?

***

Ömür boyu eşq oduna alışırıq biz,
Sədaqətdən, məhəbbətdən danışırıq biz.
Bu dünyanın boşluğunu, faniliyini
Sevgi ilə doldurmağa çalışırıq biz…

***

Yar qəlbimə incə gələ, incə vara,
Sahib ola qəlbimdəki incə vara.
Söz demişəm, ürəyinə toxunmuşam,
Qəlbi safdı, küsən deyil incəvara!

***

Əhdi düz, eşqi düz olanlar, gülüm,
Heç zaman yolundan dönüb, sapmayıb.
Mənim ürəyimə dəyən adamlar
Hələ bu dünyada xeyir tapmayıb…

***

Hər qızın səsinə titrəmir ürək,
Səndə mələklərin şövqü var imiş…
Məhəbbət çiləyir üstümə dəstək,
Səsində nə qədər sevgi var imiş!

***

Ruhuma bəzəkdi sevgi əzabı,
Mənim qismətimə bu həyat düşüb.
Bircə gün səsini eşitməmişəm,
Sevdalı qəlbimə sanki çat düşüb…

***

Sanki dünya şipşirin bir yuxudu,
Qəlbimdə bir sevgi toru toxudu.
Ürcahıma bir qız çıxdı bu yaşda,
Şair qəlbim bülbül olub oxudu…

***

Demirəm ki, sən dərdimdən ölürsən,
Bəlkə sevən ürəyimə gülürsən?
Heç bir kəsin sinəsində, əzizim,
Belə ürək yurd salmayıb, bilirsən…

***

Eşqin göylərində duman olmasa,
Məhəbbət dönərmi iti almasa?
İtirə bilərsən səadətini,
Əgər ürəyində sevgi olmasa…

***

Sevgin nifrətinlə üz-üzə durub,
Günahsız qəlbimin ver cəzasını.
Palçığı həsrətlə yoğrulmayanda
Özülü bərk olmur eşq qalasının…

***

Günahsız əllərim uzanıb göyə,
Aya göndərimmi mən ahlarımı?
Sənin ürəyinə xoş gəlsin deyə,
Yuyuram olmayan günahlarımı…

***

Xoşbəxtəm, həsrətin axır qəlbimə,
Göz yaşın yağış tək yağır qəlbimə.
Ürək öyrəşməyib qadağalara,
Sənə qulaq asım, yoxsa qəlbimə?

***

Eşqinin oduna gizli yanmışdım,
Demişdim ömrümə bir gör kim gəlir?
Səni göydən gələn mələk bilmişdim,
Fəhmimə, zəndimə heyifim gəlir…

***

Bu gün ad günündür sənin, əzizim,
Hədiyyə alanlar bilirəm, çoxdu.
Mən kasıb adamam, sənə verməyə
Qəlbimdən qiymətli heç nəyim yoxdu.

***

Qəlbimdə yer yoxdu fəğana, aha,
Sevgilər ucuzdu, ürəyim baha.
Sevirsən, sevmirsən, özün bilərsən,
Mən sənə əyilən deyiləm daha!

***

Gül tək soyuq qarı deşəsən yenə,
Kövrəksən, ürəyi şüşəsən yenə.
Qoymaram əlimdən əlin üzülə,
Qaranlıq dünyaya düşəsən yenə.

***

Çiçəksən, sanma ki, görmürəm səni,
Özün istəməsən, dərmərəm səni.
Sən mənim sonuncu məhəbbətimsən,
Heç kimə, heç kəsə vermərəm səni…

***

Mənim təmiz eşqim, ülviyyətimsən,
İllərlə gecikən səadətimsən.
Mən sənin birinci sevgilin oldum,
Sən mənim sonuncu məhəbbətimsən…

***

Səni güvəndiyim bir dağ bilmişdim,
Bilməzdim heç belə qəlbi koram mən.
Məni sevirsənsə, günahım yoxdu,
Məni sevmirsənsə günahkaram mən…

***

Dözürlər qəlbimin hər şıltağına,
Gərək dostlarımla hey öyünəm mən.
Ögeylər yanında sakit, fağıram,
Ərkim çatan yerdə ərköyünəm mən…

***

Əlim bir də yetəcəkmi sənli çağlara?
Ürəyimdə ağrı olub hicran qorxusu.
Özgə üçün qoruduğun o dodaqlara
Mənim qəlbim axı necə nəğmə oxusun?

***

Niyə əsirgəyirsən ürəyinin sözünü?
Mənim sevdalı qəlbim için-için qovrulub.
Bir vaxt vətən seçmişdi dodaqlarım üzünü,
İndi o biçarə də öz yurdundan qovulub…

***

Belə getsə, qəlbimdə tufanlar yatmayacaq,
Nə günəşə, nə aya əllərim çatmayacaq.
Bir cüt busə nə şeydi, sən onu əsirgəsən,
Mənim təşnə ürəyim həsrətdən çatlayacaq...

***

Bu ayrılıq qəlbimi illərlə göynədəcək,
Ətdən rahat ayrılıb, əzizim, dırnaq haçan?
Şəkkin-şübhən olmasın, sevgi günahsa əgər,
Mən günah içindəyəm təpədən dırnağacan...

***

Bir mehriban gözələ öz könlümü vermişəm,
Sevda dolu baxışı ürəyimə gün salıb.
Açılmamış qönçəni icazəsiz dərmişəm,
Məni eşq gülzarından yarım didərgin salab...

***

Qumsalda necə bitsin zərif bir sevda tumu?
Sevda dolu ürəyin bir gör kimdən eşq umur?
Mənə "yalançı" dedi, gözümdə şimşək çaxdı,
O boyda məhəbbətə verilən qiymət bumu?

***

Bulaq üstə küləklərin titrətdiyi bir nanəsən,
Sən əvvəl belə deyildin, elə hey köks ötürürsən.
Dəniz tək sevdiyin kəsə indi yaman biganəsən,
Nə gələndə qarşılayır, nə gedəndə ötürürsən...

***

Qəlbimdən qara qan axdı, ürəyim hər şeyi duydu,
Müqəddəs saydığım insan gör gedib kimlərə uydu?
Sözləriylə təhqir etdi içimdəki həqiqəti,
Mənə hər gün yalan deyən adımı "yalançı" qoydu.

***

Deyəsən layiq bilmirsən sən məni özünə daha,
Ürəyində yerim yoxsa, ürəyimi üzmə daha.
Hamıya qismət olmur ki, qırxıncı otağa girmək,
Sevginin sirli qapısı açılmaz üzümə daha...

***

Buluddan ayrı yaşayan şimşək görməmişəm hələ,
Səni öpmək istəyəndə gözümdə ildırım çaxıb.
Arını yaxın qoymayan çiçək görməmişəm hələ,
Əlim əlinə dəyəndə gözlərin üsyana qalxır...

***

Özülü eşqlə yoğrulan məhəbbət sarayı uçmaz,
Qəlbində sevgi olmasa, çiçəklər də ətir saçmaz.
Məndən şeir gözləyirsən, əzizim, bilmirsən məgər
Qadağalar olan yerdə şeir çiçəkləri açmaz?!

***

Hərzə-hədyan sözlərdən qəlb olub çopur-çopur,
Ağrılar gecə-gündüz ürəyimdə at çapır.
Bir kimsəylə işim yox, günahım nəymiş, Allah? –
Mən dərddən gen qaçıram, dərd özü məni tapır...

***

Sevdalar şair qəlbini çox çətin ki, yora bilər,
Könlündə sevgi olanlar tufanları yara bilər.
Qorxu qara bulud kimi hərdən örtür ay üzünü,
Allahın izni olmasa, bizi kim ayıra bilər?

***

Dərd göz yaşımı qurudub, ağlamaq qüdrətim yoxdu,
Neyləyim, elin ağzını bağlamaq qüdrətim yoxdu.
Qəlbimdə eşq fırtınası gecə-gündüz cövlan edir,
Dənizlərin dalğasını saxlamaq qüdrətim yoxdu...

**2000 -2002**

# "Həsrət sazağı" kitabından

# MƏNİM AZƏRBAYCANIM

## AZƏRBAYCAN YAŞAYIR

**Oqtay Rəcəbov bəstələmişdir**

Hərəmiz bu vətənin
Parçası, zərrəsiyik.
Yağılara yurdumun
Parçası, zərrəsi yük!

Dünyanın hər yerində
Yaşayır soydaşımız.
Düşmənlərin başına
Ələnsin qoy daşımız!

Nəqarat

Bu vətənin yolunda
Birləşsin əllərimiz!
Sevinsin dağlarımız,
Sevinsin çöllərimiz!

Neçə ki, ruhumuz var,
Neçə ki, dilimiz var, –
Azərbaycan yaşayır,
Yurdumuz, elimiz var!

Nə zaman ki, birləşir
Hissim, ruhum, bədənim,
Dünyanın özü boyda
Bir dünyadı vətənim.

Kim yurdumun ruhunu
Ürəyində daşıyır,
Onun köksü üstündə
Azərbaycan yaşayır.

Nəqarat

**11. 02. 2005**

* * *

Cığırları ayağımla
Yumaq kimi çözələdim.
Meşələrin qoynundakı
İzlərimi təzələdim.

Dırmandım çiçəkli dağa,
Qonaq oldum buz bulağa.
Maddım-maddım mənə baxan
Çiçəklərə göz elədim.

Baxma mənə quru-quru,
Ocaq sönüb, közü qoru!
Kül altında qalan qoru
Nəfəsimlə köz elədim.

Ürəyim dindi ud kimi,
Səksəndim lal sükut kimi,
Dolan qara bulud kimi
Vərəqlərə söz ələdim…

**16. 07. 2002**
**Qusar, Qayakənd**

## KUZUN YOLU

***Dostum Rəşidə***

Dağlar qoynunda uyuyur,
Kuzuna bax, Kuzuna bax!
Yamacların çiçəyinə,
Zirvələrin buzuna bax!

Qəlbi həsrətli dərələr
Öz köksünə basar çayı.
Səhərəcən layla çalır
Yatanlara Qusar çayı.

Heyranlıqla baxıram mən
Könül açan mənzərəyə.
O dağın, bu dağın suyu
Özünü atır dərəyə.

Biçənəklər bir tərəfdə,
Ayrıcadı örüş yeri.
Dərələr – dağlardan gələn
Çeşmələrin görüş yeri.

Kim deyir ki, qantəpərin,
Baldırğanın canı yoxdu?!
Ulduzların sanı var ki,
Çiçəklərin sanı yoxdu…

Arı güldən gülə qonur,
Damağında bal sevdası.
Hey uçuşur kəpənəklər,
Ürəyində gül sevdası.

Dağdan keçir, çaydan keçir
Hey uzanır Kuzun yolu.
Zirvələrə doğru gedir
Dünyanın ən uzun yolu…

**17. 07. 2002**
**Qusar, Kuzun**

## DAĞLARA SARI ÜZ TUTDUQ

Minib atların belinə
Dağlara sarı üz tutduq.
Neçə yamaca vuruldum,
Neçə zirvəni göz tutdu.

Qusarçay bələdçi oldu
Dırmandıq üzü yuxarı.
Elə bil ki, yolumuza
Nur saçırdı zirvə qarı.

Çiçəkli yamaclara bax,
Lalənin közünə isin.
Düş atdan, piyada gedək,
Ayaqlarımız sevinsin!

Yamacların ətəyində
Bizim də qalsın izimiz.
Şəlalələrdən yapışıb,
Dağlara qalxsın gözümüz.

Dumanlı dağa baxanda
Gözlərimdə şimşək çaxar.
Nə bu atlar o at deyil,
Nə bizdən Koroğlu çıxar…

**18. 07. 2002**
**Ləzə**

## YORA BİLMƏZ YOLLAR BİZİ

Apar məni o dağlara,
Qaşqa kəhər, qaşqa kəhər.
Yolu yaxşı tanıyırsan,
İstəmirəm başqa kəhər.

Keçib Peyğəmbər daşından
Gedə bilsən Ləzəyəcən,
Çiçəklərdən dəstə tutub,
Yalmanını bəzəyəcəm.

Bu yol uzanır dağlara,
Bu yol gedir Suvaracan.
Köhlənimi Qırxbulaqda
Otaracam, suvaracam.

Ürəyimizdəki həvəs
Uzaqlara yollar bizi.
Qəlbimizdə sevgi varsa,
Yora bilməz yollar bizi…

**17. 07. 2002**
**Suvar**

## DAĞ LÖVHƏSİ

Ayrı düşən dağların
Bulaq gözləri dolub.
Dağların arasında
Dərələr sərhəd olub.

Dağlar şəlalələri
Dərəyə pay göndərir.
Dərə dost sovqatını
Coşqun çaya döndərir…

## KUZUN ŞƏLALƏLƏRİ

Bu yamaclar, bu dağlar
Yaman gəlir xoşuma.
Bir kəpənək dolanır
Hər çiçəyin başına.

Dayanıbdır üz-üzə
Kuzun şəlalələri.
Məhəbbətlə seyr edir
Gözüm şəlalələri.

Elə bil iki aşıq
Dayanıbdır üz-üzə.
Hər şəlalə bir sazdı,
Ehtiyac yoxdu sözə.

Könül açan bu lövhə
Yaradanın işidir.
Dağlar xəyala dalıb,
O nəğməni eşidir…

**20. 07. 2002**
**Qayakənd**

## LƏZƏ ŞƏLALƏLƏRİ

Gözəllik məskənidir Azərbaycan torpağı,
Tanrı bizə bəxş edib gözəl şəlalələri.
Dünyaları dolaşır onun səsi, sorağı,
Ürəkləri oxşayır Ləzə şəlalələri.

Zirvələrə qalxdıqca qəlbimə düşür işıq,
Şəlaləyə baxanda köksümdə dan sökülür.
Biz onun sorağıyla dağlara dırmanmışıq,
O bizi arzulayıb, dərələrə tökülür…

**20. 07. 2002**
**Qayakənd**

## SUDUR

Bu kəndin adı Sudur,
Dörd yanı otdur, sudur.
Neçə-neçə sürülər,
Dağ yuxarı sürülər.
Anasını gözləyən
Körpə quzular mələr.
Qoyunların südündən
Gül-çiçək ətri gələr…

**20. 07. 2002**
**Qayakənd**

## YAĞIŞDAN SONRA

Qaranlıq nura bələnib,
Göy gurlayıb, şimşək çaxıb.
Damcılar nəğmə oxuyub,
Gecə səhərəcən yağıb…

Leysan təzəcə kəsilib,
Yolumu gözləyir meşə.
Hamamdan təzəcə çıxan
Gözələ bənzəyir meşə…

**04. 08. 2004**
**Qusar**

* * *

Gözəlliklər məskəniymiş Yarımca,
Sağalarsan, bura gəlsən yarımcan.
Meşələri, bulaqları bir yana,
Bir qız gördüm, doğma imiş yarımca…

**2003**

## AĞAC BİTİRƏN QAYA

Ləzəyə gedən yolun üstündə
Çiçəklə bəzənib
hər dağ, hər yamac.
Ləzəyə gedən yolun üstündə
bir bulaq,
bulağın üstündə bir qaya,
qayanın üstündə bir ağac.
Ona bədnəzər neyləyə bilər
torpağımda, daşımda
gözəllik, halallıq
mayası varsa?
Bu ölkə cənnət deyil bəs nədi,
əgər üstündə
ağac bitirən qayası varsa?

**11. 08. 2004**
**Ləzə**

## MEŞƏYƏ YAĞIŞ YAĞIR

Bulud köhlənləri
göyüm-göyüm göynədir
göyün şimşək qamçıları.
Meşəyə yağış yağır.
Ağaclar yarpaq ovuclarını açıb,
havada tutmaq istəyir damcıları.
Yarpaqlar piano dillərini,
Yağış sehrkar
bəstəkar əllərini xatırladır.
Göylərin yağış simfoniyası
heyrətə gətirir yerdə insanı.
Yarpaq ovucda tutub saxlamaq
mümkündümü leysanı?!
Səhərəcən gözlərinə
getməyib çimir, –
Ağaclar
bəxtiyar-bəxtiyar
çimir,
çimir…

**26. 07. 2002**
**Qayakənd**

* * *

Sev hər gülü, hər yarpağı,
Yaşamaq xoşbəxtlik deyilmi
bu gözəl məkanda?
Bitirdiyi qanqala,
çayıra görə
söymə torpağı;
torpaq gül-çiçək də bitirir,
qaratikan da…

**2003**

* * *

Fırtına simfoniyası
çox yaraşır
dilinə dənizin.
Küləklərdən başqa
kim sığal çəkə bilər
telinə dənizin?!

**2003**

## YAZ DUMANI

Yaz dumanı olubdur
Meşənin tül köynəyi.
Ağacların içində
Tumurcuqlar göynəyir.

Novruzgülü – meşənin
İlk şamı, ilk çırağı.
Duman yuna bənzəyir,
Budaqlar – yun darağı.

Təbiət bir sehrli
Sərgi açıb qarşımda.
Duman yarpağa dönür
Ağacların başında.

Yarpaq yadigar qalır
Sanki duman köçündən.
Yaşıl ümid sıyrılır
Boz dünyanın içindən…

**21. 03. 2002**
**Qusar**

## BAHARIN İLK QƏDƏMLƏRİ

Dərin qış yuxusundan ayrılmayıb böcəklər,
Budaqlardan sallanıb bərq vuran şeh muncuqlar.
Ağacların dibində üzə gülür çiçəklər,
Ancaq göz açmayıbdır budaqda tumurcuqlar.

Yaz yağışı inci tək səpilib düzə, çölə,
Çiçəklərin gözləri dikilib uzaqlara.
Gövdənin içi ilə bahar yol gedir hələ,
Üç-dörd günə çatacaq ən uca budaqlara…

**21. 03. 2002**
**Qusar**

## İKİ DƏNİZ

Romantik xəyallar
məni möcüzələr beşiyi dənizin
sahilinə aparır.
Ancaq dənizlə üz-üzə gələndə
ürəyim fəğan qoparır…
Dalğalar "mən ölüm, sən öl" bilmir,
hövsələsi dardı.
Xəyalımdakı dəniz mehriban,
qarşımdakı dəniz qəddardı…

**22. 04. 2002**

***

Bir umacağın varsa, söylə,
Əlimi qoyum
gözümün üstünə!
Uyut məni, uyut, dənizim,
Başımı qoyum dizinin üstünə…

# TƏRƏZİDİR ELİN GÖZÜ

## SÖZ KARVANIM

Bir söz çəməni salmışam
Aqil gəlib çiçək dərə.
Sevənlər baxıb zövq alar
Mən əkdiyim çiçəklərə.

Nadansa kobud sözüylə
Ürəyimə yara salar.
Gözümdə bərq vuran nuru
Görə bilməz yarasalar.

Şükür ki, mənim arxamda
Qədirbilən elim durur.
Ay nurundan yoğrulmuşam,
İçim duru, çölüm duru.

Qəmə bələnmiş sevgimi
Görənlərin qəlbi sızlar.
Mənim isti sözlərimi
Necə sevsin qəlbi buzlar?!

Çiçək gözündə şeh öpən
Bir şairi duymaq üçün,
İlahi bir sevgi ilə
Dolu ola gərək için.

Gücün çatmaz ürəyimin
Yanğısını yatırmağa.
"İt hürüşü qadir deyil
Mələk ünü batırmağa."

Qəlbində sevda olmayan
Bulaq tək çağlaya bilməz.
Söz karvanımı yolundan
Bəndələr saxlaya bilməz…

**27. 12. 2003**

## İTİ QƏLƏM

Mənə pənah gətirib
uzaqlar, yaxınlar;
üşüyən böcəklərə,
ağlayan çiçəklərə
sığınacaq olub
isti ovcum.
Söz gülşənimə
əyri-əyri baxanlar!
Gözlərinizi qoruyun, –
Çox itidi ha
qələmimin ucu!…

**28. 12. 2003**

***

Həyat eşqi –
Sevdayla dolu
nəfəsimdi.
Məni qüdrətli eləyən
**10.07.2006**

## SEVGİ İLAHƏSİ

Qəlbimin buzları çevrilib selə,
Sevgi ilahəsi izimə düşüb.
Sənin göndərdiyin bir mesaj ilə
Qələmim, ilhamım tilsimə düşüb.

Çatmadım bu eşqin uc-bucağına,
Titrək təbəssümə bükdüm qəmimi.
Çevrilib bir Bermud üçbucağına,
Qoynuna çəkmisən sevgi gəmimi.

Uzaqda işarır tale ülkəri,
Nə var kimi varam, nə yox tək yoxam.
Bulud gözlərini görəndən bəri
Həsrətin əlində qalıbdır yaxam.

Yurd sala bilməyib ürəyimdə kin,
Hər sözün ruhumu qəmə bələyib.
İlahi nəfəsin ürəyimdəki
Ötən sevgiləri xəzan eləyib.

Mənə yox deməyib kimdən pay umsam,
Bircə çiçəklə də ömrüm yaz olub.
Bəlkə sən sonuncu sevgi payımsan,
Bəlkə taleyimə adın yazılıb?!

Qəlbə nə lağ etmək, nə gülmək olar,
Bulud dolmayıbsa, yağası deyil.
Allahın işini nə bilmək olar,
Heç kəs taleyinin ağası deyil…

**25.07.2006**

## SƏNİN SEVDALI GÖZLƏRİN

Yenə də üz-üzə gəldik,
Bütün dünyanı unutdum.
Sənin sevdalı gözlərin
Bir cüt qapqara buluddu.

Mehriban təbəssümündən
Varlığıma gül ələnib.
O ilahi gözlərə bax,
Nəğmə ilə siləl期nib…

Bəbəklərinin içində
Çaxar sevda şimşəkləri.
O gözlər qoyarmı sola
İlhamımın çiçəkləri?

***

Qəlbinin sözünə bax,
Elə sev ki, İlahəm,
Hamıya örnək olsun
Mənim sevgi İlahəm…

**26.07.2006**

***

Həsrət dolu misralarım
sənə doğru gedən yoldu.
Təzə şeirlərimi
qəlbim əsə-əsə
sənə oxuyanda,
Gözlərin
bəxtəvərliklə doldu.
Misra qollarımla
səni bağrıma basdım,
Sevda dolu
nəğməmin ardını
öz titrək dodaqlarımla
Sənin həyadan
od tutub yanan
üzünə yazdım…

**26.07.2006**

## BİR CÜT SEVGİ ADASI

Gecələr köks ötürürsən
Ayrılığa sinə gərib.
Pəncərənin qarşısından
Boylanırsan qərib-qərib.

Söylə, qəlbinin başında
Mənim sevgi odam varmı?
Bu şəhərdə sənin üçün
Məndən doğma adam varmı?

Bənövşə məhəbbətimin
Üstündən ayaz çəkilib.
Bir cüt yarpağa bənzəyən
Gözlər yoluma dikilib…

Sevda dolu bəbəklərin
Siləlenibdir yaş ilə.
Sənin gözlərinin rəngi
Ay aman, çalır yaşıla!

Dəli könlüm söyləyir ki,
O gözəlin qadasın al!
Yaşıl bəbəklər mənimçün
Dönüb sevgi adasına!

**29.07.2006**

## OXATAN

Ay Oxatan, ay Oxatan!
Ürəyimi paraladın.
Öz nəmli kirpiklərinlə
Bir Oğlağı yaraladın…

Ay Oxatan, ovun qanlı!
Gözlərin niyə yol çəkir?
Bu sevgiyə bəlkə elə
Tanrının özü qol çəkib?!

**29.07.2006**

***

Nə vaxtsa tənha qalacağımı
ürəyim duymuşdu.
İllərin ayrılıq xəzanı
sevgi ağacımı
lüm-lüt qoymuşdu.
Yaz yelinəbənzəyən nəfəsin
içimdəki duyğuları oyatdı.
Ürəyimdə
bənövşə görkəmli
bir sevgi boy atdı.
Bilməzdim ki,
pərişan baxışlarımı görəndə
sevdalı gözlərin
bahar buludu kimi dolacaq.
Bilməzdim ki,
bu ilki sevgi dünyamın yarpaqları
sənin yaşıl gözlərin
olacaq…

**30.07.2006**

## SƏNİN GÖZLƏRİNİN CAZİBƏSINDƏ

Sənin də haqqın var xoşbəxt olmağa,
Gözlərin nə qədər göz yaşı töksün?!
Daha taqətim yox gendə qalmağa,
Köksümə can atır sevdalı köksün…

Olub qamətinə əsir ürəyim,
İlahi sehri var incə səsində.
Çırpınır ürəyim, əsir ürəyim
Sənin gözlərinin cazibəsində.

Nə qədər sevdalı gözlər dolacaq? –
Onlara həsrətlə baxıram, gülüm!
Öpməsəm, ürəyim çat-çat olacaq,
Öpsəm, ayrılıqdan qorxuram, gülüm…

**14.08.2006**
**Qusar**

***

Deyəsən xətrinə dəymişəm,
Üzünü məndən döndərmisən.
Yazdığım nəğmələri də
acıqla "geriyə göndərmisən".
Göyün üzünü buludlar bəzəyir
yağış qabağı.
Yalnız sevənlər bacarır
bağışlamağı…

**14.08.2006**

***

Sən mənim yaralı könlümü
sevgi ilə dindirə bildin.
Sən kükrəyən sevgi çayıma
baxışlarınla bənd vurub,
suyunu özünə sarı döndərə bildin…

**14.08.2006**
**Qusar**

***

Qəlbimiz murada yetməyib hələ,
Qarşıdan ağ günlər səsləyir bizi.
Nə yaxşı ömrümüz bitməyib hələ, –
Sevdalı sabahlar gözləyir bizi…

**14.08.2006**
**Qusar**

***

Sən mənim
şeirlərimi oxuyanda
bulud kimi dolursan.
Göylərdən gələn bir huri,
mələk olursan.
Həyəcandan
köksün qabarır,
səsin titrəyir.
Dilin topuq çalır,
"büdrəyir"…
Səsini dinləyən işıqlı salon,
qaranlıq gecə xoşbəxtdi…
Sənin səsinə
bələnmiş hisslərim
bilirsən necə xoşbəxtdi?!
Sən mənim
şeirlərimi oxuyanda
sevdalı bəbəklərindən,
nəmli kirpiklərindən
ulduz dərirəm.
Mən sənin səsini
təkcə eşitmirəm,
həm də görürəm…

**16.08.2006**

## DƏYİRMAN ÖZ İŞİNDƏDİ

Durnanın qərib köksünü
namərd qurşunu ağrıdır,
İçindəki həsrət seli
gözün yaşını yandırır.

“Bu yaşda məhəbbət olmaz”, –
hey mənə öyüd verirsən, –
Dəyirman öz işindədi,
çax-çax başını ağrıdır…

**16.08.2006**

***

Gül təzədi, gül tərdi,
Məni üzdü gül dərdi.
Sənin sevgi bağından
Şükür olsun, gül dərdim!

***

Yoxsa dostum, həyanım,
Ha alışım, ha yanım.
Məhəbbətin hökmüylə
Atdıq abır-həyanı.

## HƏYATIM

Qışım, payızım, yazım,
Sevgi dolu avazım,
Dillənən könül sazım,
Şirin nəğməm, bayatım,
Həyatım!

Dərdimi bilmirsənsə,
Üzümə gülmürsənsə,
Yuxuma gəlmirsənsə,
Havayıdan ha yatım?! –
Həyatım!

Elə baxma ağlayıb,
Qəlbin buzmu bağlayıb?
Səni gül tək qoxlayıb,
Necə kənara atım? –
Həyatım!

Dərib sevgi barından,
Uyuyum qollarında.
Məhəbbət yollarında
Qoy ucalım, boy atım,
Həyatım!

Məni eləmə sürgün,
Şair könlümlə sür gün!
Yuxudan səni hər gün
Öpə-öpə oyadım,
Həyatım!

Can neyləsin bədənsiz?
Dağ olmaz duman-çənsiz.
Mən əgər qalsam sənsiz,
Viran olar həyatım,
Həyatım!

**02.09.2006**

## NİYƏ

Səhər səhər sahildə
Yer tapmıram özümə.
Niyə günəş sevgiylə
Gülümsəmir üzümə?

Niyə dəniz dəyişib
Ahəngini, rəngini?
Niyə qoymur başıma
Öz dalğa çələngini?

Niyə fəğan eləmir,
Xəzərin qəlbi daşmı?
İçimdəki dalğalar
Niyə kükrəyib daşmır?

Nəyə görə işarmır
Kül altda qalan közüm?
Boylanıram hər yana,
Niyə dörd olub gözüm?

Niyə qəlbim dənizə
Baş vurmağa tələsmir?
Niyə köksümdə ürək
Sevincdən tir-tir əsmir?

Ləpələr cavab vermir
Sinəmdən qopan aha. –
Sahildə bir qız vardı,
O, gözə dəymir daha.

Elə bil içimdəki
Həyat eşqi səngiyib.
Bəlkə indi gələcək,
Bəlkə o qız ləngiyib?

Bu dünyanın işləri
Qəribəymiş, qəribə.
Onsuz doğma sahildə
Elə bil ki, qəribəm.

Sən demə təbiətin
Yaraşığı bəşərmiş…
Bir qızın yoxluğuyla
Dəniz adiləşərmiş…

**03.09.2006**

## DİBİNDƏN SU ÇIXAN AĞAC

Məst olub bahar yelindən,
Dağların axan selindən,
Yapışıb günün telindən
Buludlara qalxan ağac.

Dünyanın gözəl çağında
Bitmisən sevgi bağında.
İti balta qabağında
Olmayasan qalxan, ağac!

Nəğmələr yatır dilində,
Sevgi yurd salıb könlündə.
Dəli küləyin əlində
Qalıb sənin yaxan, ağac.

Kölgənə gələndə qızlar,
Ürəyin sevgidən sızlar.
Daha sənin nə dərdin var,
Dibindən su çıxan ağac?

**10.08.2006**
**Altıağac**

***

Sənin sevdalı ürəyin
Göylərin quşudu, nədi?
Tapdayıb keçmə qəlbimi, –
Yolların daşıdı, nədi?

Baxışın yandırıb-yaxan,
Həsrətin əlində yaxam.
Sübhədək üstümə yağan
Gözünün yaşıdı, nədi?

Dilin söz ilə oynayır,
Qaşın göz ilə oynayır,
Əlin köz ilə oynayır, –
Barmağın maşadı, nədi?

**30.09.2006**

***

Gör kimdə gəzirəm dərdə dəvanı? –
Mən səni öpürəm, sənsə havanı.
Öyrənmiş bir cana neyləyəsidi
Sevgi fırtınası, sevgi tufanı?!

**2006**

***

"Sənin görüşünə gül dərmək üçün
Sinəmə çəkdiyin dağa çıxmışam."

**Bir mesajdan**

Duyuram ki,
ayrılıq sənə yamanca
güc eləyib.
Ürəyinə çəkdiyim
dağın üstündə
sevgi çiçəkləri qönçələyib.
Ömrünə qəm buludu çökəndə
Sevdalı gözlərində
həsrətim gecələyib.
Duyuram ki,
həsrətdən çat-çat olan köksün
sevgimlə dönəcək
ətirli bir çəmənzara.
Bəlkə də

bir ac arının öpüşlərindən
nə vaxtsa gələcək
çəmən zara.
Bilmirəm ki,
qəlbimi necə verim
bəbəklərindən sevgi daman
bir qaşları çatmaya.
Ancaq köksünə
çəkdiyim dağ
o qədər ucadır ki,
Qorxuram ki,
heç ora ünüm yetməyə,
əlim çatmaya…

**24.10.2006**

## MƏNİM KİRPİYİMƏ QONAQ GƏLƏN QIZ

Bir damla yaş kimi qopub gözündən
Sənin kirpiyinə qonaq gəlmişəm.
Qırpma kirpiyini, çıxma sözümdən,
Qaranlıq dünyana çıraq gəlmişəm.

**Bir mesajdan**

Sevdalı köksünə həsrətim hopub,
Qəlbi ağlasa da, gözü gülən qız.
Bir gilə yaş kimi gözümdən qopub,
Mənim kirpiyimə qonaq gələn qız.

Nələrə qadirmiş o bir damla su? –
Az qalır gül aça kirpiklərim də.
Sənin həsrətinin iki damlası
Bir yelləncək asıb kirpiklərimdə.

Çox zillət çəkmişəm indiyə qədər? –
Ürəyin həssasdı, hiss eləyəcək.
Onsuz da o məni duymasa əgər
Məhəbbət çırağın his eləyəcək…

Ayıra bilirəm xalisi, qəlpi,
Sənin göz yaşların niyə soyuqdu?
Qonaq-qaralıdı onsuz da qəlbim,
Heyf ki, sahibi, yiyəsi yoxdu…

**24.10.2006**

***

**Sevinc üçün**

Mənə bir cüt qələm alıb,
Dincliyimə qələm çəkdin.
Əl vuranda, köhlən kimi
Şahə qalxdı, qələm səkdi…

Biri çevrildi Qırata,
Biri çevrildi Dürata.
Hey çapdılar sənə doğru, –
Nə vaxt yetəcəm murada?

O atların gözlərindən
Vərəqlərə yağış yağdı.
O atların ləpirindən
Sevda çiçəkləri qalxdı…

***

Mənə aldığın qələmlərin
biri qırmızı,
biri qaradır.
O qələmlər ürəyimdə
qəribə duyğular yaradır…
Elə bilirəm ki,
onların biri mənəm,
biri sən…
Onsuz da əvvəl-axır
biləcəksən
qəlbimi göynədən
sirri sən.
O qələmdən süzülən
həsrət dolu misraları
oxuyanda
sevdalı gözlərin
dolacaqmı?
Onlar qələmdanda
qoşa uzandıqları kimi
bizə də sevgi kəcavəsində
baş-başa vermək
qismət olacaqmı?

**06.11.2006**

***

Qəlbimiz murada yetməyib hələ,
Qarşıdan ağ günlər səsləyir bizi.
Nə yaxşı ömrümüz bitməyib hələ, –
Sevdalı sabahlar gözləyir bizi…

**2007**

# "Eşqin qarlı yollarında" kitabından

## ALLAHA SARI GEDƏN YOL

### ALLAHÜ ƏKBƏR

Çiçəklər gülür
Yağış yağanda.
Bir səda qopur
Şimşək çaxanda:
Allahü əkbər!
Allahü əkbər!

Quşlar göylərə
Meydan oxuyur,
Yağış çiçəkdən
Xalı toxuyur.
Allahü əkbər!
Allahü əkbər!

Elə ki meşə
Yaşıl don geyir,
Sanki yarpaqlar
Dil açıb deyir:
Allahü əkbər!
Allahü əkbər!

Ulduzlara bax,
Bənzəyir közə.
Göylər möcüzə,
Yerlər möcüzə…
Allahü əkbər!
Allahü əkbər!

İllər dil açır,
Aylar dil açır.
Kükrəyib daşan
Çaylar dil açır:
Allahü əkbər!
Allahü əkbər!

Məni kövrəldən
Sarı xəzəldi.
İlahi, dünya
Necə gözəldi!
Allahü əkbər!
Allahü əkbər!

Çöllər, yamaclar
Güldü, çiçəkdi.
Dağlar, dərələr
Necə qəşəngdi!
Allahü əkbər!
Allahü əkbər!

Ocaq yananda
Köz çiçəkləyir.
Dodaqlarımda
Söz çiçəkləyir:
Allahü əkbər!
Allahü əkbər!

**28.09.2007**

## EY GÖYÜN,
## YERİN SAHİBİ

Ey Göyün, Yerin sahibi,
Bu qədər sirrin sahibi!

Ömrüm keçməsin ah ilə,
Məni işdən agah elə!

Bu dünyanı dərk eləyim,
Günahları tərk eləyim.

Tutub göylərə üz, gəlim,
Dərgahına təmiz gəlim…

**2008**

***

Kamil olan insan gərək
Özü özünü tanıya.
Sonra diz çöküb, təşəkkür
Eləyə ulu Tanrıya!

Allahü əkbər deyəndə
Səsim əsir məhəbbətdən.
Bu dünyada gözəl nə var
Yaradana məhəbbətdən?!

Tanrım, sənə minnətdaram
Bu tükənməz vara görə.
Qəlbimdəki məhəbbətə,
Gözümdəki nura görə…

***

Hər bəladan, hər qəzadan
Məni Allah qoruyacaq.
Haqqa qarşı qalxan əllər
Əvvəl-axır quruyacaq…

**2007**

## TANRI DƏRGAHINA GEDƏN YOL

Nadanlıq –
imansızın qəlbində
sağalmaz azara dönür.
Pis əməllər –
Allaha sarı
gedən yolun üstündə
keçilməz hasara dönür.
Allah –
sidq ürəklə
Ona ibatət eləyənləri
xoşlayır.
Tanrı dərgahına gedən yol
İman nurundan başlayır…
Hər insan –
Ulu Yaradanın
sevimli körpəsidi.
Sevgi –
Allahın dərgahına
gedən yolun
körpüsüdü…

**2007**

***

Elə bilməyin
Dostumuz çoxdu.
Allahdan başqa
Dostumuz yoxdu…

**20.01.2008**

*******

Çoxdan keçibdir
Ömür yarıdan.
Mənə rəhm elə,
Ulu Yaradan.

Qəlbimin simi
Çəkilib tarım.
Yox səndən özgə
Himayədarım.

Məni xilas et
Nəfsin əlindən.
Şair dodağı
Öpsün əlindən.

Əskik eləmə
Gözümdən nuru.
Ürəyimdəki
Sevgini qoru!

**31.01.2008**

***

Ömrüm boyu yaşamışam
Ölüm-dirim arasında.
Ona görə öz yerim var
Ölüm, dirim arasında…

**26.02.2007**

***

Bəxtəvərlər bəxtəvərinə
dönə bilmirəm,
bəxtəvər oğul-uşaq,
bəxtəvər nəvə-nəticə elində.
Hərdən Allahın səbrinə
məttəl qalıram,–
Yaxası qalıb dəli,
gicbəsər övladlarının
əlində…

**26.02.2007**

## DƏNİZ TƏKCƏ MƏNİM İDİ

Dəli kimi evdən çıxdım çaparaq,
Qəlbim idi sənsiz haray qoparan.
Məni dəniz sahilinə aparan
İçimdəki qəmim idi bu səhər,
Dəniz təkcə mənim idi bu səhər.

Əzab dolu piyaləni daşa vur,
Bu dastanı ləyaqətlə başa vur.
Üfüqlərin bəbəyindən daşan nur
Həsrətimə qənim idi bu səhər,
Dəniz təkcə mənim idi bu səhər.

Yağışdımı bəbəyində sellənən?
Ləpələrmi pıçıldayan, dillənən?
Dalğaların qucağında yellənən
Mənim sevgi gəmim idi bu səhər,
Dəniz təkcə mənim idi bu səhər…

**20.02.2007**

## TANRI PAYI

Göylərdən gələndə qar xışma-xışma
Müdrik düşünəcək, naşı güləcək.
Bəyaz saçlarıma baxıb qımışma,
Sənin də ömrünün qışı gələcək...

Sənə də cavanlar ağız büzəcək,
Sənin də ocağın buza dönəcək.
Sənin də içini sazaq kəsəcək,
Sənin də gözünün nuru sönəcək.

Duyğusuz bir insan quru payadı,
Ulu yaradanın önündə əyil.
Bir də ki, ömür-gün Tanrı payıdı,
Qocalmaq hamının qisməti deyil…

**20.03.2007**

***

Qışın son günüdü,
başlayıb təhvil-təslimə…
Sevsəm də
hər bir fəsli mən,
Gedəni saxlamağa,

Gələni qaytarmağa
gücüm çatmaz.
Xoş getdin, qarlı qış,
Xoş gəldin, çiçəkli yaz!
Ulu tanrım, indən belə
Mənim taleyimi
çiçəklə yaz!…

**20.03.2007**

## BİZ KÖÇƏNDƏ

Biz köçəndə bu dünyada
Qalacaqmı ömrün izi?
Var-dövlət yığmaqdan ötrü
Xərcləyirik ömrümüzü.

Niyə bu qədər hərisik
İnciyə, dürrə, altuna?
Dünya çox "mənəm" deyəni
Alıb dizinin altına.

Acılar yaddan silinir
Elə ki biz bal dadırıq.
Xırda-xuruş sevinclərlə
Özümüzü aldadırıq.

Ömrü güdaza veririk
Qurdalana-qurdalana.
Əriyirik, yox oluruq
Xırdalana-xırdalana…

**06.04.2007**

## TANRIM, ŞÜKÜR KƏRƏMİNƏ

Axı bəndə nə karədi? –
Məhəbbət Tanrı işidi.
Sevgidən əsən ürəyin
Səsini Tanrı eşidir…

Neçə-neçə dəli sevda
Ürəyimi şum eləyib.
Tale məni sevib, əzab
Çəkməyə məhkum eləyib.

Həsrətimdən şəfəq saçan
Nəmli gözləri öpmüşəm.
Mənim sevgi gülzarıma
Düşən izləri öpmüşəm.

Çevrilmişəm bəxtəvərə,
Yolum düşüb yar bağına.
Köksümdə əsən ürəyim
Dönüb payız yarpağına.

Ömrümü sevgi yolunda
Səpə-səpə boy atmışam.
Neçə mürgülü qönçəni
Öpə-öpə oyatmışam.

Cadar-cadar ürəyimdə
Hər sevgidən bir iz qalıb.
Tanrım, şükür kərəminə,
Adım yenə təmiz qalıb…

**20.08.2007**

***

Tanrım, mən qulaq asmışam
Hər an qəlbimin səsinə.
Sənin yaratdıqlarını
Sevirəm dəlicəsinə.

Bəxtəvərə çevrilmişəm
Şehli yamacda gəzəndə.
Titrək əlim ləzzət çəkib,
Çəmənzardan gül üzəndə.

Qanad açan quşa baxıb,
Istəmişəm mən də uçum.
Çiçək gözündə şeh öpüb,
Titrəmişəm uçum-uçum.

Təşnə dodaqlarım öpüb,
Bulaqlarının gözündən.
Sevgi ocağı çatmışam
Göylərin ulduz közündən.

Çiçəkli budaq görəndə
Artıb yaşamaq həvəsim.
Saralmış yarpaq görəndə
Titrəmişəm əsim-əsim.

Həsrət yelləri əsəndə
Üstümü duman bürüyüb.
İlahi gözlər görəndə
Qəlbim şam kimi əriyib.

Uca dağlara qalxanda
Bəbəyimdə şimşək çaxıb.
Gözəl qızlara baxanda
Yanmışam, cızdağım çıxıb…

Məni sevənlər çox olub,
Qəlbimdən bir qoşun gedib.
Bənövşəni kol dibində
Qoxlayanda huşum gedib.

Məhəbbətlə yoğrulubmuş
Mənim qışım da, yazım da.
Gözəllikdən qəlbi əsmək
Var imiş alın yazımda…

Çox sağ ol, sevgi yolunda
Nəfəsimi qaraltmısan.
Sən bu qədər gözəlliyi
Mənim üçün yaratmısan!

Ürəyimdən sevgi daşır,
Qismətimdi nə vermisən!
Tanrım, şükür kəraminə,
Bu qəlbi mənə vermisən…

**15.10.2007**

## BİZ ÖZ TALEYİMİZİN AĞASI DEYİLİK HA

Sevdalı ürəyimə vurub yara buludlar,
Sıxlaşıb qatar-qatar gedir hara buludlar?
Başımızın üstündə uçur qara buludlar –
Şimşək olub göylərdə çaxası deyilik ha!
Biz öz taleyimizin ağası deyilik ha!

Pərən-pərən düşmüşük öz doğma elimizdən,
Sevdiyimiz kəslərin üzülüb əli bizdən.
Səhralar çat-çat olub, nə gəlir əlimizdən? –
Yağış olub çöllərə yağası deyilik ha!
Biz öz taleyimizin ağası deyilik ha!

Nə dağıq, nə dənizik, düşüncəli insanıq,
Qəlbimiz danışanda dinləyənik, susanıq,
Üstümüzə yağsa da ayrılığın leysanı,
Selə dönüb dağlardan axası deyilik ha!
Biz öz taleyimizin ağası deyilik ha!

Səni duymayan kəsə könül bağlamaq olmaz,
Ürək yanmasa əgər axı ağlamaq olmaz?!
Gedəni öz yolundan zorla saxlamaq olmaz,
Hər gözəlin dalınca baxası deyilik ha!
Biz öz taleyimizin ağası deyilik ha!

Gözümüzdən çağlayır yenə həsrət selləri,
Başımızın üstündə əsir hicran yelləri,
Səpələnib, dağılıb ömrümüzün illəri,
Onları muncuq kimi yığası deyilik ha!
Biz öz taleyimizin ağası deyilik ha!

**11.05.2007**

***

Allah istəsə əgər,
Çaylar kimi coşar,
Bulaqlar kimi
çağlarıq…
Allah qəzəblənsə əgər
Önündə nə dayanar,
kim durar?!

Biz onun düzəltdiyi
adi oyuncaqlarıq. –
İstəyər, oynadar,
İstəyər, sındırar…

**30.09.2007**

## ŞAHDAĞIN ƏTƏKLƏRİNDƏ

Zirvəyə uzanan yolun
Hər pilləsində bir dağ var.
Hər yamacın sinəsində
Büllur gözlü bir bulaq var.

Ulu yaradanın əli
Söykək edib dağı dağa.
Belə də gözəllik olar? –
Gözüm qalıb baxa-baxa.

Gül çiçəkli yamacları
Görən ürəyim yaz olub.
Dağların köksündən axan
Hər şəlalə bir saz olub.

Ona dayaq olan dağlar
Şahdağı Şahdağ eləyib.
Ulu Tanrı zirvəsini
İl uzunu ağ eləyib.

Göylərdə ildırım çaxır,
İçimdə fırtına qopub.
Ciyərimə gül qoxulu
Dağların havası hopub.

Peyğəmbərin bulağından
İçmək qismətim var imiş.
Şəlalənin köynəyindən
Keçmək qismətim var imiş.

Şipşirin bal hazırlanır
Arzuların pətəyində.
Çox şükür sənə, İlahi,
Əlim qalıb ətəyində.

Bəxtəvərə çevrilmişəm,
Göz yaşım baxmır sözümə.
Taleyimi yazan əli
Öpüb qoyuram gözümə…

**22.07.2007**
**Ləzə**

## YAĞIŞ SİMFONİYASI

Təbiət ana
ilhama gəldi,
dilləndi.
Heyrət gözlərimdən
qovdu yuxumu.
Qızılı şimşək
dirijor çubuğu kimi
yelləndi,
Əzəmətli bir
yağış simfoniyası
oxşadı ruhumuzu…

**10.08.2007**
**Nabran**

## NABRANIN BULAQLARI

Bulaqlarının
suyu tükənməz,
Ağaclarının gövdəsinə
örkən dolanmaz. –
Bu gözəllik
mənim xalqıma
Tanrının verdiyi
paydı.
Nabranın bulaqlarına
Bulaq demək də olmaz,
Hərəsi bir ağacın
dibindən
çıxan çaydı…

**08.08.2007**
**Nabran**

## GÜNƏBAXAN

Günəş günəbaxanın
Qəlbində eşq oyadır.
Günəşə çatsın deyə,
Günəbaxan boy atır.

Onu bəxtiyar edib
Ürəyinin atəşi.
Harda gizlənsə belə
Tapacaq o günəşi…

***

Ruhdan düşüb
fikir eləmə,
davam elə yoluna.
Onsuz da əvvəl-axır
zaman hər işi
qoyur yoluna…

**27.05.2007**

***

Kağız –
qələmin döşəyi,
Qələm –
kağıza baş əyir…

***

Ocaq sönür,
köz qalır,
Şair gedir,
söz qalır…

# İKİ ÜRƏK BIR OLANDA

## SEVGİ FƏSLİNİN YAĞIŞI

Yaz yağışı torpağa düşərkən ona həyat verir, bəs Siz hansı fəslin yağışısınız ki, ürəyimə düşüncə orada yeni bir dünya yaratdınız?

**Bir mesajdan**

Gülüm, mən sevgi fəslinin
Çiskiniyəm, yağışıyam.
Kim bilir, bəlkə də elə
Yaradanın göz yaşıyam?!

Bir buludam, nəm çəkirəm
Gözəllərin baxışından.
Kimsəyə ziyan gəlməyib
Hələ sevgi yağışından.

Nəğmələrimlə könlünün
Simlərini dindirəcəm.
Belə getsə, ürəyini
Gülüstana döndərəcəm…

Mən elə bir yağışam ki,
Səsim yatanı oyadır.
Bircə qətrəm düşən yerdə
Sevgi çiçəyi boy atır…

Məhəbbətim ürəyində
Bənövşələr bitirəcək.
Sevgi fəslinin yağışı
Qəlbinə yaz gətirəcək…

**09.12.2006**

## KİMLİYİNİ BİLMƏSƏM DƏ

Mən Sizin sevgi çiçəklərinizin vurğunuyam. Bu çiçəklərdə Sizin qəlbinizin gözəlliyini görürəm. Kimliyimi isə yazmağa çəkinirəm. Amma Sizi çox sevən bir tələbənizəm.

**Bir mesajdan**

Sevgi dolu mesajlarınla
dincliyimi
gora göndərmisən.
Sən məni
sevgilisinin
üzünü görməyən
kora döndərmisən…
Bəlkə də mənə
lağ edib gülürsən,
Elə bil yolumu azmışam
çiskinlər, dumanlar içində…
Sən xoşbəxtsən,
heç olmasa
kimi sevdiyini bilirsən,
Mən isə
sərgərdan qalmışam
şübhələr, gümanlar içində…

Qəlbimi çırağa döndərib
mənə sarı gələn
yollarının üstündə
asmaqdan ötrü ölürəm.
Kimliyini bilməsəm də,
Səni bağrıma
basmaqdan ötrü ölürəm…

**12.12.2006**

***

Əgər ürək
kimə doğrusa can atırsa,
ona nə demək olar?
Sevginin borcunu
yalnız sevgi ilə
ödəmək olar…

**12.12.2006**

***

"Sevgi könüllərdə açan çiçəkdir. Bir yol sevən, əlbəttə, ömürlük sevəcəkdir…"

**Bir mesajdan**

Sənin ürəyində açan
Çiçəyi dərdim, –
nə gözəl!
Həsrətinlə çırpınıram,
İçimdə dərdim –
nə gözəl!

Ancaq bilmirəm ki, kimsən,
De, nə deyim bu adətə?
Bəlkə layiq deyiləm heç
Könlündəki məhəbbətə?

Mənim üşüyən qəlbimi
Qızdıra bilməz hər isti.
Onunla oynama, ay qız,
Könlüm sevgiyə hərisdi…

Sənin adını bilməmiş
Qovuşsam əbədiyyətə,
Günahlara batacaqsan, –
Gülüm, son qoy bu niyyətə…

Bəlkə gizlicə gülürsən
Ürəyimi üzə-üzə?
Durmağa layiq deyilmi
Şair səninlə üz-üzə?

Kimliyini bilməsəm də,
Həmişə əzizlənirsən.
Əgər qəlbin məndədirsə,
Axı niyə gizlənirsən?

Onsuz da hər şey aydındı,
Ox atıb, yayı gizləmə!
Yaradanın mənim üçün
Verdiyi payı gizləmə…

**13.12.2006**

***

Mesajında yazırsan ki,
Qəlbini mənə vermisən.
Ürəyində qönçələyən
Sevgi gülünü dərmisən.

Mənim sevdalı könlümə
Aşiq olan mələksənmi?
Özüylə sevgi gətirən
Bir sehrli küləksənmi?

Nəfəsin qarsır üzümü,
İçimdə həsrət közərir.
Ancaq bədbəxtəm,
görmürəm
Mənə vurulan gözləri.

Sinəmdəki ağrılara
Heyf ki, qənim deyilsən.
Ruhun ruhuma yaxındı,
Ancaq sən mənim deyilsən.

Həsrətindən sevən qəlbim
Çiçək kimi sola bilər.
Kimliyini bilmədiyim
Necə mənim ola bilər?

**2006**

***

– Qərq olub sulara söz gəmim,
Mənimçün doğmadır öz qəmim.
Həsrətdən ürəyim üzülür,
Bilmirəm mənimsən, özgənin?

– Əzizim, sanırsan məni nə?
Nəğmələr qoşuram şəninə.
Gəl saxla qəlbini buz kimi,
Neçə ki, sevirsən, səninəm.

**30.12.2006**

## SEVGİ DƏNİZİ

Sən gözəllik ilahəsi,
Mən gözəllik dəlisiyəm.
Gecə-gündüz dalğalanan
Bir məhəbbət dəniziyəm.

Sevgi nəğməsi oxuyur
Ləpələrim sənin üçün.
Həsrətinlə gecə-gündüz
Göynəyirəm için-için.

Nə vaxtacan könlüm quşu
Həsrət qalsın dən üzünə?
İnci taparsan, baş vursan
Əgər sevgi dənizinə…

**30.12.2006**

***

Telefonun dəstəyində
Titrək barmaqların gəzdi.
Təzə ilin ilk günündə
Məni anmısan, bu bəsdi…

Dikilibdir yollarıma,
O nə ilahi gözlərdi?!
Sözlərinin istisindən
İçimdə həsrət közərdi.

Soyuq köksümü dağladı
Sevda dolu isti sinə.
Ümid çiçəkləri açdı
Sözlərinin istisinə.

Əlini ovcumda sandım,
Üşüyən qəlbim qızındı.
Səadətli günlərimin
Ömrü bir il də uzandı…

**01.01.2007**

***

"Doğan hər günün səhərində içimdə gözlərini görə bilmək eşqi olmasa, inan, heç bir şeyə dəyməzdi yaşamaq."

**Bir mesajdan**

Bu gün gözlərimi görmək arzusu
Gün kimi boylanıb içindən sənin.
Təşnəyə neyləsin iki damla su? –
Gəl, həyat nuru tək içim mən səni!

Əzablar, ağrılar qoy yetsin sona,
Üz-üzə, göz-gözə durub ağlayaq.
Sevməkçün verilib həyat insana,
Niyə boynumuzu burub ağlayaq?!

Hələ görməmişdim belə möcüzə,
Baş aça bilmirəm bu haqq-hesabdan.
Çıx üzə, bilim ki, kimsən, nəçisən,
İntizar könlümü qurtar əzabdan.

Ürəyim od alıb həsrət közündən
Inləyər, çırpınar, sızlar içimdə…
Sevdiyin o gözlər düşüb gözümdən, –
Səni seçəmməyib qızlar içindən…

***

Diləyirsən mənim bir cüt gözümü,
Gəl ömrünü gülüstana döndərim.
Əgər görmək istəmirsən üzümü,
Hüzuruna gözlərimi göndərim…

**16.01.2007**

***

İşıqlı səhərim axşama dönüb,
Neçə ki, fürsət var, zülm et qəlbimə!
Sənin hər barmağın bir şama dönüb,
Yanır, nur çiləyir zülmət qəlbimə.

Titrək barmağından mesaj süzülür,
Məni sevgi ilə danışdırırsan.
Nəfəsin dəyəndə qəlbim üzülür,
Sönən ocağımı alışdırırsan.

Ruhumu qızdırmaz hər nur, hər isti,
Yaradan göndərə gərək payımı.
Sevdalı ürəyim qəmə hərisdi,
Hər qara gözlüdən əzab-pay umur…

Üstümdən ayrılıq yelləri əsir,
Sönən bir ocaqdan qor ummaq olmaz.
Mənim ürəyimlə oynayan kəsi
Tanrı cəzasından qorumaq olmaz…

**16.01.2007**

***

Mənim könlümün quşu
sənin sevgi ağacının
budaqlarına
qonmaq istəyir.
Mənim kəpənək
qanadlı həsrətim
sənin ləçək dodaqlarına
qonmaq istəyir…
Fəqət nə
o budağı tapa bilirəm,
nə o dodağı…
Bu arzu məni
öldürəcək deyəsən.
Bu sevgi
elləri üstümə
güldürəcək deyəsən.

**21.01.2007**
**Bakı**

***

"Kimdi ki, məni
bu qədər sevir?" –
Özüm özümə gülürəm.
Ancaq bəbəklərim
həsrətdən od tutub yanır.
Tanıdığım bütün
qızların çöhrəsini
gözlərim önündə
canlandıra bilirəm,
ancaq bilmirəm ki,
bu sevdalı ürək
kimin köksündən
boylanır?

Oğrun-oğrun gözəllərə baxıb,
səni sevənin kimliyini
aramaq armı?
Ancaq nahaqdan
özümü yoruram,
O ürəyə layiq qamət,
o ürəyə layiq sinə varmı?

**21.01.2007**

***

Sən mənim sevdalı könlümün
sonuncu baharı, yazısan.
Gecənin qaranlığında
köksünün nuruyla qızınmağa,
günəşin işığında
saçlarının kölgəsində dincəlməyə –
Hər şeyə, hər şeyə razısan…
Bəlkə də ürəyindən keçənləri
düz demirsən.
Ancaq yağışlı havada
sənə qısılıb ağlamağımı
istəmirsən…
Çünki məni çooox
sevdiyini yazırsan.
Bu sevginin yollarında
hər şeyə,
hər şeyə hazırsan…
Xoşbəxtəm,
başımın üstündə
ulduzlar kimi sayrışan
bir sevgi tacım var.
Ancaq…
Yağışın altında

doğma bir adama qısılıb,
bəxtəvərlikdən
hönkür-hönkür ağlamağa
ehtiyacım var…

**21.01.2007**

***

Məni elə bir dünyaya
apardın ki,
bəxtəvərlər bəxtəvərinə
döndüm.
Dodaqlarının istisindən
alovlandım,
Nəfəsinin dalğasından
söndüm.
Görəsən bizə
qismət olacaqmı
xəyallarımızda yaşatdığımız
o görüş axşamı?
Təkcə sən
yandıra bilərsən, əzizim,
köksündə söndürdüyüm
o şamı…

**28.01.2007**

***

O söhbətdən sonra
bir şey yazdınmı? –
Deyirsən. –
Məlhəm hazırlamısanmı
yaramı sağaltmağa?
Elə işlər var ki, əzizim,
lüzum yoxdu onları
açıb-ağartmağa…

O görüşün sevinci, həzzi
təkcə mənim deyil,
xatirəsi sənə də qalır.
O elə bir ilahi şeirdi ki,
ləzzəti bircə dodaqda,
istisi bircə sinədə qalır…

**30.01.2007**

***

Bilirsənmi sevən ürək
Qadir olur nələrə?
Ya sən mənim olmalısan,
Ya mən sənsiz ölərəm…

**2007**

## TİTRƏK SƏSLƏRİMİZ

Səsimi eşitcək titrədi səsin,
Sevinc buludları tutdu üzünü.
Bahar havasına döndü nəfəsin,
Dünyanın xoşbəxti sandım özümü.

Sənin məhəbbətin bulaq tək duru,
Pıçıltın sükutu dindirdi yenə.
Səsinin sevincə bələnmiş nuru
Məni bəxtəvərə döndərdi yenə.

Sənsiz mən heç nəyəm, saxla yadında,
Sevdalı gözlərin bulud tək doldu.
Özümüz yansaq da həsrət odunda,
Titrək səslərimiz qol-boyun oldu…

**11.02.2007**

***

Sevgi çırağımız his eləməsə,
Nuruna sevənlər baş əyə bilər.
Mən səndə soyuqluq hiss eləməsəm,
Bu sevgi əbədi yaşaya bilər…

**11.02.2007**

***

Qorxuram ki,
ürəyimdən qopan haray
ürəyinin sükutunu
dindirə bilməyə.
Qorxuram ki,
sevgim sənin qəlbini
laləzara döndərə bilməyə.
Qorxuram ki,
kəpənək qanadlı
duyğularım
sənə yük ola.
Qorxuram ki,
itirdiklərin
qazandıqlarından
böyük ola.
Qorxuram ki,
nəfəsin qəlbimin buzunu
əridə bilməyə.
Qorxuram ki, sevgim
ağlayan ürəyini
kiridə bilməyə.
Nəfəsin üzümə dəyəndə
içimdə həsrət tumurcuqları
puçurlayır.
Dodaqların dodaqlarıma
ilahi sözlər pıçıldayır.

Təzəcə başlayan
bu sevgi dastanını
bitirmək istəmirəm.
O sevdalı baxışların,
o kövrək ürəyin,
o səsin, o nəfəsin sahibini
itirmək istəmirəm…

**17.02.2007**

## MƏNİM OLMAQ İSTƏYƏN GÜL

"Gülü necə gəldi tutsan, tikanları batar, yarpaqlarını açsan, duyğuları axır, tutmağın qaydasını bilsən, o gül sənin olar."

**Bir mesajdan**

Ürəyim kövrək olsa da,
Ağlamağı xoşlamıram.
Çiçəyi dərib güldanda
Saxlamağı xoşlamıram.

Əyilib gülün gözündə
Şeh öpməkdən xoşum gəlir.
Demə güllü yazım gedib,
İndi qarlı qışım gəlir…

Bu dünya yaranan gündən
Zaval olmayıb doğruya.
Gül ətrini duyardımmı
Dözməsəm şirin ağrıya.

Yarımı özüm yoluxub,
Yoxlamağı xoşlayıram.
Mən gülü öz budağında
Qoxlamağı xoşlayıram.

Qəlbi məndə olmayana
Gəl bizə köçək – demərəm.
Dizimi yerə vurmayan
Çiçəyə çiçək demərəm…

**06.02.2007**

## ELƏ BİL BAHARDI BU

Ələ düşməz beləsi,
Yanağı may laləsi.
Nəfəsi yaz küləyi,
Səsi dağ şəlaləsi.

Naz eləmək hədərdi,
Daha mənim nə dərdim?
Düymələri yaxandan
Bənövşə kimi dərdim.

Qalxdım yaz yuxusundan,
Məst oldum qoxusundan.
Bənövşə ətri gəlir
Yarımın yaxasından.

Axtarıb sora-sora,
Yetişdim çəmənzara.
Ac arının əlindən
Gəlibdir çəmən zara.

Ayrı düşsəm ahumdan,
Göylər yanar ahımdan.
Bəxtəvərə dönmüşəm,
Tanrım, keç günahımdan!

Nə sevməli yardı bu,
Ürəyimi yardı bu.
Qəlbimdə gül bitirdi,
Elə bil bahardı bu…

**26.04.2007**

*******

Sanırdım sən mənim eşqimin barısan,
Gözümün işığı, könlümün yarısan.

Əbədi hicrana talemi qol çəkib?
Ayağım altında elə bil yol çöküb.
Gecələr sübhədək gözlərim yol çəkir,
Sənsizlik mənimçin deyilmiş, yar, asan.

Sanırdım sən mənim eşqimin barısan,
Gözümün işığı, könlümün yarısan.

Qəlbinin ağrısı, gözünün yaşıyam,
Məhəbbət çayının çınqılı, daşıyam.
Nə məni öldürür, nə qoyur yaşıyam, –
Sən mənim köksümdə sağalmaz yarasan.

Sanırdım sən mənim eşqimin barısan,
Gözümün işığı, könlümün yarısan.

Geriyə fırlanmır taleyin təkəri,
Göz dikib yoluma Bərgüşad, Həkəri.
Başımın üstündə taleyin ülkəri
İşarır, sayrışır, çağırır harasa…

Sanırdım sən mənim eşqimin barısan,
Gözümün işığı, könlümün yarısan.

**01.05.2007**

***

“Bürcüm xərçəngdir. Xərçənglər üçün sevgisiz həyat boşdur.”

**X.Nadirova**

Mən oğlaq, sən xərçəngsən,
Bu sevgidən əl çək sən!
Mən danışan, sən susan,
Mən torpağam, sən susan.
Sən dəniz, mən sahiləm,
Sən varlı, mən sailəm.
Baş tutarmı bu sevda?
Get öz tayını sev da!
Gözlərin görmür məgər? –
Sən cavan, mən ixtiyar.
Məndədimi ixtiyar,
Səndədimi ixtiyar?!
Günahkar ürəyimdi,
Günahkar ürəyindi.
Sevgi yaşa baxmırsa,
Neyləsin ürək indi?!

**09.05.2007**

# İNDİ BİLDİM

Həmişə məni görəndə
Qaş-qabağın tökülərdi.
İşıq saçan təbəssümün
Uçub göyə çəkilərdi.

Sən özün məndən gen qaçıb,
Üzümə baxmasan belə,
Demə köksündə ürəyin
Döyünürmüş sevgi ilə.

Demə gizlicə-gizlicə
Eşq oduna yanırmışsan.
İndi bildim ki, sən məni
Qızlara qısqanırmışsan.

Min şükür tale yazana,
Könlümün yarı gəlirmiş.
Bilməzdim ki, məndən qaçan
Qız mənə sarı gəlirmiş…

İki sevən ürək üçün
Görüş inci, görüş dürrdü.
İndi bildim tale bizi
Niyə bir də görüşdürdü?!

**09.05.2007**

***

Yenidən üz-üzə gəldik,
Görüşdük doğmalar kimi.
Isti ovcuma sığındı
Əllərin bumbuz qar kimi.

İşardı gözüm önündə
Taleyimin bəxt ulduzu.
Baxışların nur çilədi,
Əridi qəlbimin buzu.

Həsrət dolu baxışların
Hər an məni izləyirmiş.
İllər boyu yanaqların
Öpüşümü gözləyirmiş…

Saçlarına sığal çəkdi
Gözlərim əlimdən qabaq.
Səni sevdiyimi dedi
Dodağım dilimdən qabaq…

**10.09.2007**

## GET İŞİNİN DALINCA

Qara-qara buludlar
Boşalınca, dolunca,
Get çəməndən çiçək dər
Xəyallara dalınca.

Bir baxışla mat oldum,
Ürəyim çat-çat oldu.
Qara qaşlar çatıldı,
Döndü bir cüt qılınca.

Tapdalama rəddimi,
Lağa qoyma cəddimi,
Həsrət əyib qəddimi
Səndən cavab alınca.

Çiçək yoxsa, bar olmaz,
Bir güllə bahar olmaz.
Səndən mənə yar olmaz,
Get işinin dalınca…

**13.05.2007**

## ZARAFAT

Boş sözlərlə sevgini pərdələmə,
Gülüm, səni Tanrı belə yaradıb.
Kökəlməyi özünə dərd eləmə,
Bədənində bir öpüşlük yer artıb…

**2007**

***

Göylərdən gələn sevgiyə
Neyləsin qoruq-qadağa?
Gözü gözümü gəzən qız,
Gözüm gözünə sadağa…

**2007**

***

Sahildə tək-tənha bir gözəl gəzir,
Qarışır sulara gözünün yaşı.
Başının üstündə şimşəklər çaxır,
Köksündə dalğalar kükrəyir, daşır.

Qalıbdır yer ilə göy arasında,
Durub laqeyd-laqeyd baxır adamlar.
Nə qoşula bilir su pərisinə,
Nə onu sahildə duyan adam var…

**19.05.2007**

## İKİ ÜRƏK BİR OLANDA

İnsan yaman kövrək olur
Məcnun kimi vurulanda.
Qəlbi yarpaq kimi əsir
Sular axıb durulanda.

Gözündə yaş çiçək-çiçək,
Dərd əlindən hara köçək?
Uf deyərmi sevən ürək
Eşq oduna qovrulanda?

Sərraf tanısa incini,
Gizləyəmməz sevincini.
Göz gözdə alar dincini
Yol çəkməkdən yorulanda.

Dodaqlara gülüş qonar,
Yağış yağar, gül islanar.
Dünya dönər gülüstana
İki ürək bir olanda…

**27.05.2007**

## TANRIM, KEÇ GÜNAHLARIMDAN

Bu qız təşnə ciyərimə
Hava gətirən küləkmi?
Mənim sevgi gülzarımda
Təzəcə açan çiçəkmi?

Bəlkə o ilahi gözlər
Mənim bəxtimə yazılıb?
Öpüşünün nübarından
Ömrümün qışı yaz olub.

Gecə-gündüz göynəyirəm
Bir ümidsiz ah içində.
Sözümə baxmayan ürək
Çırpınır günah içində…

Bəbəyimdə şimşək çaxdı,
Doğru yol seçə bilmədim.
Tanrım, keç günahlarımdan,
Bu qızdan keçə bilmədim…

**01.08.2007**

## ÜRƏYİMƏ DÜŞƏN DAMLA

"Yağışın damlası ilanın dilinə düşüncə zəhər, incinin içinə düşüncə almas olurmuş. Siz nəyin damlasısınız ki, qəlbimə düşüncə hər şeyim oldunuz?"

**Q.Nübar**

Ürəyinə düşən damla
Qəlbini gülzar eləyib.
Meyvəsiz qalan ağacın
Budağına bar eləyib.

Ürəyinə düşən damla
Ulduz kimi şəfəq saçır.
Ürəyinə düşən damla
Gecə-gündüz ətir saçır.

O damlada çimən yarpaq
Heç zaman dönməz xəzələ.
O bir damlada yuyunan
Dönər qənirsiz gözələ…

Heç nə, heç nə ola bilməz
O bir damlanın gücündə.
Yer var, göy var, kainat var
O bir damlanın içində.

Ürəyimə düşən damla
Məhəbbətin nurudumu?
Səndən bir səs-soraq yoxdu,
O bir damla qurudumu?!

**07.08.2007**
**Nabran**

***

**Nübar üçün**

Elə bil Tanrı səni
yaralı könlümə
məlhəm göndərib. –
Mənimlə hər görüşdən sonra
qəlbindən sevinc boylandığını
yazırsan.
Sevgi səni
titrəyən payız yarpağına
döndərib,
Nəfəsim dəyən kimi
köksümə düşməyə
hazırsan…

**2007**

## MƏNİ YAŞAMAĞA QOYMAYAN QADIN

Bizi bir-birimizə
qovuşdura bilmirsə,
Ayaqlarımızın altında
Getdiyimiz yol çöksün!
Ürəyimiz nə qədər göynəsin,
Gözlərimiz nə qədər yol çəksin?
Bu nə zülümdü mənə verirsən
yaşın bu çağında?
Nə qədər sərgardan qalım axı
Gizli bir sevgi adasının
hicra bucağında?
Bir qüvvə varmı ki,
Məni sənsiz,
Səni mənsiz
günlərə qaytarsın?
Məni yaşamağa
qoymayan qadın,
Öldür, ikimizin də
canımız qurtarsın…

**23.08.2007**

***

Qoyma adım dilə düşə,
Məni salma dilə-dişə…

***

Hər şeyin vaxt-vədəsi var,
Əcəl zəngi çalınacaq.
Ömür bizə borc verilib,
Əvvəl-axır alınacaq…

**28.08.2007**

## MİLYONÇU SAİL

**Rəsmiyyə üçün**

Zarafatla belə dedin
Bənzədib məni sailə:
– Öpüş sədəqəsi düşür
Köksü sevdalı şairə.

– Daha özgə nə lazımdı
Öz ürəyinə sadiqə?
Məni milyonçu eləyib
Sənin verdiyin sədəqə…

**07.09.2007**

## SƏN ADLI BİR DAYANACAQ

Bir xınalı kəklik uçub qayadan
Naz-qəmzəylə ovçusunu çağırdı. –
Yanaqları qızarmışdı həyadan,
Gözlərindən bəxtəvərlik yağırdı.

Nə olsun ki, saçıma qar ələnib,
Neynim axı, ürək baxmır sözümə?!
Bir utancaq təbəssümə bələnib,
Bəbəklərin nur saçırdı üzümə.

Qəlbim oldu o sevginin köləsi,
Gör kim düşdü qismətimə, payıma?
Sənin qara gözlərinin giləsi
Kömür kimi közərmişdi, ay aman!

İndiyəcən mən sanırdım buz səni,
Köksündə bir yanar ocaq var imiş.
Mənim sevgi yollarımın üstündə
Sən adlı bir dayanacaq var imiş…

**11.09.2007**

## BU DA TANRI QİSMƏTİYMİŞ

Bu da Tanrı qismətiymiş
Təzədən üz-üzə gəldik.
İçimizdə tufan qopdu,
Elə ki göz-gözə gəldik.

Ayağım altdan yer qaçır,
Bəbəyimdə şimşək çaxır.
O bir cüt gül ləçəyini
Necə öpməyəydim axı?!

İçindən sevgi boylanan
Gözlər çətin mürgüləsin.
Nəfəsimlə közərmişdi
Qara gözlərin giləsi.

Köksümdə sevdalı ürək
İnləyirdi için-için.
Əlim yarpaq tək əsirdi,
Çox sağ ol o anlar üçün.

Şəvə kimi saçlarına
Baxışımla zər elədim.
Özüm batsam da günaha,
Səni bəxtəvər elədim.

Ruhumu alt-üst elədi
Bircə sevdalı baxışla.
Tanrım, məni o gözəlin
Xoş anlarına bağışla!

**11.09.2007**

***

Ciyərlərimdən getməyib
Nəfəsinin doğma ətri.
Dodaqlarım qəribsəyib,
Sənin yanağından ötrü.

Nə vaxtdı həsrət qalmışam
Saçlarının qoxusuna.
Titrəyən əllərin girir
Əllərimin yuxusuna…

Necə də bəxtəvər idi
Sevdayla dolu baxışlar!
Sanki nura qərq edirdi
Mən gələn yolu baxışlar.

O gözlər mənim gözümə
Necə baxırdı, İlahi!
Bəxtəvərlikdən içimdə
Şimşək çaxırdı, İlahi…

Bu sənin sevgi payındı,
Qismətə çevirmə arxa.
Unutma, bir də gələcək
Nə vaxtsa su gələn arxa…

**14.10.2007**

***

Daha ömrümüzü
sevgimizin
ötən xatirələri
bəzəyir. –
Qohumdan,
tanışdan
gizlədirik onu…
İndi eşqimiz
sönməkdə olan
bir ocağa bənzəyir,
Arabir üfürüb
közərdirik onu…

**14.10.2007**

## SEVGİ KÖRPÜSÜ

**Ş.Vəfa üçün**

Sevda dolu məktubunla
Sən məni özümdən aldın.
Ürəyindən ürəyimə
Bir sevgi körpüsü saldın.

Arzumun solan gülünə
Təbəssümün həyat verdi.
Sənin isti sözlərinlə
Qəlbimin buzu çat verdi.

Mənim sevgi çiçəyimin
Bəbəyində yaş güləcək.
Quruyan neçə bulağın
Gözlərinə yaş gələcək.

Yenə yaralı ürəyim
İçin-için ağlayacaq.
Yenə sevdalı köksümdən
Sellər, sular çağlayacaq.

Şükür ulu yaradana,
Taleyimə yazıb səni.
Saz kimi çala biləydim
Kaş köksümə basıb səni…

**25.11.2007**

***

Adın tək vəfalı olsan
Qəlbinə nur ələyəcəm.
Öz ilahi sevgim ilə
Səni xoşbəxt eləyəcəm.

Gül bitəcək döşəyində,
Dayanacam keşiyində.
Arzuların beşiyində
Səni gülə bələyəcəm.

Könül versən əgər yada,
Dönəcəm qara buluda,
Qəhərimi uda-uda
Arxanca su çiləyəcəm…

**28.11.2008**

***

Mənim sevgimdən qiymətli
Dövlət, var tapa bilməzsən.
Ürəyimə dəysən əgər
Qışda qar tapa bilməzsən.

Gəl əl götür bu adətdən,
Pay ummazlar səadətdən.
Ömrün boyu məhəbbətdən
Şirin bar tapa bilməzsən.

Köksümdə dərin yarasan,
Gözümdən axan qorasan,
Ha axtarsan, ha arasan
Mən tək yar tapa bilməzsən…

**23.11.2007**

## AVTOQRAF

Vəfa! Vəfa!
Gəl insafa!
Qismət ol bir
Qəlbi safa.
Sənsiz varmı
Zövqi-səfa? –
Qoyma çəkim
Cövri-cəfa…

***

Canım Vəfa, gözüm Vəfa,
Sənə çoxdu sözüm, Vəfa.
Aralığa hicran düşüb,
Buna necə dözüm, Vəfa?!

**28.11.2007**

## İKİ ODUN ARASINDA

Sən əkizlər bürcündənsən,
Bəlkə bir az düşünəsən? –
Qorxuram ki,
ömrün boyu
İki odun arasında
Üşüyəsən…

**28.11.2007**

***

Qönçəni öpüb oyadan
sehrli külək kimisən,
Soluxan gülün üstünə
qonan kəpənək kimisən.
Mən payızam, sən baharsan,
bu sevgi baş tutan deyil, –
Sən xəzəllərin altından
boylanan çiçək kimisən…

**28.11.2007**

## SƏNLİ SABAHLAR

Dünyanın ən əziz adamı!
Sizə olan sevgim sonsuzdu…

**İlahə Vəliyeva**

Mən elə bilirdim qəlbin buz olub,
Mən elə bilirdim unudulmuşam.
Sanırdım köksündən bir daş asılıb,
Sanırdım yuvası dağılan quşam.

İçimi yaxırdı həsrət közləri,
Ümidim yox idi sənli sabaha.
Mən elə bilirdim yaşıl gözlərin
Sevgi şəfəqiylə bərq vurmaz daha.

Həsrət alovuyla göynəyir içim,
Pərvanələr kimi oda uymuşam.
Sən demə hələ də mən sənin üçün
Dünyanın ən əziz adamıymışam.

İsti bir sözünlə coşub-daşmışam,
Üşüyən deyiləm yağsa sabah qar.
Sənsiz günlərimlə vidalaşmışam,
Mənə gəl-gəl deyir sənli sabahlar…

**01.01.2008**

## EŞQİN QARLI YOLLARINDA

Biz əl-ələ yol gedirdik
Dümağ qarı yara-yara.
Ürəyimiz can atırdı
Çovğundan üzü bahara.

Qarlı düzlərdən keçəndə
Ayağımız büdrəyirdi.
Mənim ovcuma sığınan
Bəyaz əlin titrəyirdi.

Qar ələnirdi göylərdən
Arzuların külü kimi.
Köksümüzdən boylanırdı
Sevgi novruzgülü kimi.

Biz əl-ələ yol getsək də,
Məhəl qoymurduq qar-buza.
Mən şaxta baba olmuşdum,
Sənsə dönmüşdün qar qıza.

Bəmbəyaz küçələr, yollar
Qəşənglərin qəşəngiydi.
Elə bil ki, qarlı düzlər
Ağ qızılgül çələngiydi.

Üst-başımız qar olsa da,
İçimiz bahar kimiydi.
Sevgimiz buzun altında
Çağlayan sular kimiydi.

Bu yolda saç ağartsam da,
Bu cür naşı olmamışdım.
Mənim həyatımın belə
Gözəl qışı olmamışdı.

Aradakı aylar, illər
Qandal olub qollarımda.
Görən bizi nə gözləyir
Eşqin qarlı yollarında…

**6-7.01.2008**

***

Ömrümün karvanı gedir, əzizim,
Məni unutmusan nədir, əzizim? –
Vəfalım, belə də vəfa olarmı,
Bir düşün, bu qədər cəfa olarmı?

**20.01.2008**

***

Mən danışam,
Vəfa susa.
Cəza verəm
Vəfasıza…

**2008**

## BİR ÇƏTİRİN ALTINDA

Bir çətirin altında
Yol gedirdik ikimiz.
Ancaq yağan yağışda
Deyildi heç fikrimiz.

Bir çətirin altında
Gizli yandıq, alışdıq.
Hisslərə pərdə çəkib,
Ordan-burdan danışdıq.

Bir çətirin altında
Nə qədər dayanaydıq?
Sevgi yağışlarından
Necə daldalanaydıq?!

**19.01.2008**

## SƏSİN ELƏ TİTRƏYİR Kİ…

Əlim əlinə dəyəndə
Uçunursan uçum-uçum.
Az qalıram qanadlanıb,
Səninlə birlikdə uçum.

Mənimlə danışan zaman
Sözlərin canıma hopur.
Səsin elə titrəyir ki,
İçimdə zəlzələ qopur…

**20.01.2008**

***

"Sevgi yoxdur" deyən səsin
Sevgidən yarpaq tək əsir…

**2008**

## İNDƏN BELƏ

"Darıxmışam Sizinçün. Mən bir təhər ayrılığın öhdəsindən gəlirəm. Özünüzə yaxşı baxın. Görüşmək ümidi ilə"…

**Q.N.**

Mesajın gün işığı tək
Şəfəq saçdı səhər-səhər.
Yazırsan ki, ayrılığa
Mənsiz dözürsən bir təhər.

Çox sağ ol ki, gizləmirsən
Sən sözünün doğrusunu.
Duyursan mənsiz qalmağın
Acısını, ağrısını.

Hər dəfə məktub yazanda
Özünü qoru, – deyirsən.
Kim deyə bilər sən mənim
Gözümün nuru deyilsən?

Bir az da gec gəlsən əgər
Ağac kimi quruyacam.
İndən belə mən özümü
Sənin üçün qoruyacam…

**08.02.2008**

***

“Aramızda tikanlı tellər olsa da, sıra-sıra dağlar olsa da, unudulmazsınız”…

**Q.N.**

Sevgi təşnəsini
Səndən başqa
Heç kəs, heç kəs
Doyura bilməz.
Aramızdakı
tikanlı tellər,
Sıra-sıra dağlar,
Uzun-uzun yollar belə
Bizi ayıra bilməz…

**12.02.2008**

***

Xahiş eləyirsən ki,
səni də özümlə
dənizə aparım. –
Sözlərin içimdə
fırtına qoparır.
Odum
kifayət eləyəcəkmi
Səni də pərvanə kimi
yandırmağa?
…Mən öyrəşməmişəm
qız ürəyi sındırmağa…

**2008, mart**

## SƏNDƏN UMACAĞIM NƏDİR GÖRƏSƏN

Hərdən sanıram ki, karvanım köçüb,
Həyatda ta heç nə deyil gərəyim.
Ağlım söyləsə də dövranım keçib,
Ona təslim olmur şıltaq ürəyim.

Bu gecikmiş sevgi nəyimə gərək? –
Buz salıb həsrətin şaxta üzünə.
Gah səni görəndə titrəyir ürək,
Baxmaq istəmirəm gah da üzünə…

Gah yaxın olursan, gah uzaq mənə,
Gah doğma olursan, gah yad olursan.
Gah da baxışların çəkir dağ mənə,
İçimdən püskürən fəryad olursan.

Gah başım üstündə ulduz olursan,
Gah da mənə deyil, yada baxırsan.
Gah adi, apadi bir qız olursan,
Gah da ürəyimi oda yaxırsan.

Mənə gəl-gəl deyir bəyaz, kök sinə, –
Bu nəfsin əlindən hara köçüm mən?
Hərdən də baş qoyub sənin köksünə
Hönkürüb ağlamaq keçir içimdən.

Arabir qorxuram sözdən-həkətdən,
Hərdən də bülbül tək ötməyim gəlir.
Yapışıb əlindən, bu məmləkətdən
Çıxıb uzaqlara getməyim gəlir…

Sevgi yollarında oldum ərəsən,
Min ocaq çatılıb mənim közümdən.
Səndən umacağım nədir görəsən? –
Baş aça bilmirəm özüm-özümdən…

**03.02.2008**

## YOL AYRICINDA

Neçə illərdən bəridir
Qalmışam yol ayrıcında.
Ağrılar şeh tək bərq vurur
Kirpiklərimin ucunda…

Oxu daşa dəyənlər çox,
Mən kimin hayına gedim?
Yollar yenə "gəl-gəl" – deyir,
Bilmirəm hayana gedim?

Bir tərəfdən işıq gəlir,
Bir tərəfdə itlər hürür.
Bir tərəfdə incə əllər
Çiçəklərdən çələng hörür.

Sıldırımın sinəsindən
Uzanan yollar görünür.
Boynuma sarılmaq üçün
Açılan qollar görünür…

Baxışından həsrət yağır,
Gözəlləşdirib qəm səni.
İçimdə fırtına qopub,
Qorxuram ki, sevəm səni…

Azalmayıb ağrılarım,
Yaram hələ zoqquldayır.
Sevgi şimşəkləri çaxır,
İldırımlar şaqqıldayır…

Sevdalar mənə dağ çəkib,
Ölürəm, gülüm, ölürəm.
Olacağa çarə yoxdu,
Gəlirəm, gözlə, gəlirəm…

**06.04.2008**

# SMS YAĞMURUNDA

## MEYXANA DE, MEYXANA

Döndü bizim yurdumuz meyxana meydanına,
Qorxu düşüb, ay aman, ermənininin canına,
Çırtma ilə mən onu qərq edəcəm qanına,
Qoymayacam düşməni yurdumuza yayxana,
Qalibiyyət ondadır, meyxana de, meyxana…

Qurban olum yurdumun torpağına, daşına,
Hər "sms" düşmənin mərmi olur başına,
Gənclərimiz göz dikib "öz qoçu qardaşına",
Ağzınacan dopdolu pivəxana, çayxana,
Qeyrətimiz meyxana, heyrətimiz meyxana.

Avamları soymağı götürmüşük öhdəlik,
Məqsədimiz deyil ki, bir aylıq, bir həftəlik.
Kitab nə, dəftər nədir? – Biz ki sinədəftərik!
Sən də a kaftar kişi, saqqalına qoy xına,
Çırtma vurub rəqs elə, meyxana de, meyxana.

Sanma bizim çarxımız fırlanacaq tərsinə,
Səsləyirik milləti qeyrət, hünər dərsinə.
Siz də gəlib səs verin çırtmamızın səsinə,
İndi bizimdir, bizim, ekran, efir, toyxana,
Meyxana de, meyxana, meyxana de, meyxana…

Bəxtin ayaq üstdədi, gəldi sənə pay, qaqaş,
"Sms" sel tək axır, pullarını say, qaqaş,
Tiryək olub sözlərin millət üçün, ay qaqaş,
Sən yaradan "şah əsər" qalsın elə soyxana,
Zövqümüzü korlayır sən dediyin meyxana…

**05.05.2007**

## BU MİLLƏT GEDİR DUZA

Yolumuza göz dikib torpağımız, daşımız,
Babamızın yurdunda at oynadır qonşumuz.
Bizsə çırtma vururuq, bəxtəvərə dönmüşük,
Meyxana dumanında xumarlanır başımız.

Xoşbəxtdi arvad, uşaq, xoşbəxtdi cavan, qoca,
Zərrəcə düşünməyə bir kimsə tapmır macal.
Başımız bərk qarışıb, ara vermir şoular,
Bu millətin zövqünü kimdi qoyan hərraca?!

Nə qədər çəkəcəyik bu ağrını, zilləti?
Bu qəflət yuxusundan ayılan yoxdur qəti.
Bir para acgöz zəli dönüb Şeyx Nəsrullaha,
"Sms" barmağıyla qaz tək yolur milləti.

Gözlərimiz dikilib qoca, cavan "ulduz"a,
Ekranın qabağında çayımız dönüb buza.
Görək necə olacaq bu işlərin axırı,
Niyə ahıl yaşında bu millət gedir duza?!

**13.05.2007**

## BU ŞƏHƏRİN NƏYİ PİSDİ

Qızlarının ağzından
saqqız iyi gəlir,
Oğlanlarının ağzından
tüstü. –
Bu şəhərin nəyi pisdi?
Küçələri
evlərindən isti,

Bu şəhərin nəyi pisdi?
Metroya ağsaqqal,
ağbirçək girəndə
Cavanlar başlarını
aşağı salır,
yaşlılar ayağa qalxıb
yer verir əlüstü…
Bu şəhərin nəyi pisdi?
Oğrunun,
quldurun adı çıxıb,
Cinayəti törədən
yüksək rütbəli polisdi –
Bu şəhərin nəyi pisdi?
Ağaclar bir gecədə kəsilib,
Yerində göydələnlər ucaldılır
əlüstü –
Bu şəhərin nəyi pisdi?

**17.02.2008**

## İT ÖMRÜ

Qışın şaxtası,
çovğunu,
Yayın qızmar istisi,
bürküsü
ona əzab verir. –
İt ömrü çox cəfalıdı.
Ancaq bu əzabları
görən it
Neçə it oğlu itdən
vəfalıdı…

**27.05.2007**

# SEVGİ DUYĞULARI

## GÖZÜNDƏN BOYLANAN HƏSRƏT

Gözəlliyi sevsəm belə
Hər gözəldən pay ummadım.
Gözündən boylanan həsrət
Gözlərimdən yayınmadı.

Ürəkdən sevənlər üçün
Görüş inci, görüş dürrdü.
Ömrün dolanbac yolunda
Bizi tale görüşdürdü.

Söylə, sevgi göylərimin
Bədrlənmiş ayısanmı?
Ömrün ixtiyar çağında
Mənə Tanrı payısanmı?

Qəlbimdən qopan harayın
Sədası sən olacaqsan.
Bəlkə son sevgi nəğməmin
Nidası sən olacaqsan?!

**06.05.2008**

## GÖZÜN AYDIN, YUSIFOĞLU

Nədənsə ömrün uzunu
Yol çəkib nəmli gözlərin.
Uzaq-uzaq üfüqlərə
Dikilib qəmli gözlərin.

Dayanıb öz qismətini
Gözləməkdən bezməmisən.
Saçlarına dən düşsə də,
Ümidini üzməmisən.

Gözlərin işıq arayır, –
Yenə buludlar qaralıb.
Uzaq yollara baxmaqdan
Gözünün kökü saralıb.

Taleyinə, qismətinə
Bir sevdalı yar gəlirmiş.
Aylar, illər arxasından
Gecikmiş bahar gəlirmiş…

Gülsün sevgi çəmənzarın,
Öz çiçəyin, gülün gəldi.
Gözün aydın, Yusifoğlu,
Axır ki, sevgilin gəldi…

**07.05.2008**

## HİCRAN BULUDLARI

Bu ayrılıq qəlbimizi
həmişə yandırıb yaxacaq. –
Üstümüzə qara-qara
hicran buludları çöküb, –
Tezliklə həsrət yağışları
yağacaq…

**07.05.2008**

***

Tale yenə də
sevdalı ürəyimə
çalın-çarpaz bir
dağ çəkdi.
Bu sevginin sevincini
dadmamış
üstümüzə ayrılıq dumanı
çökdü.
Sənə kim dedi axı
sevgi alovuna gir, yan?!
Sən dünyanın
o başında
qalacaqsan giryan,
Mən dünyanın
bu başında giryan…

**07.05.2008**

## BU GÜN GÖRÜŞÜMƏ GƏLMİŞDİN…

Bu gün həsrətimə olmuşdun qənim,
Bu gün görüşümə gəlmişdin mənim…

Dağ çəkdik hicranın sərt ayazına,
Süzdük məhəbbətlə mavi dənizi.
Min şükürlər olsun qismət yazana, –
Gördük bu dünyada cənnətimizi…

Unudub dünyanı, deyil özündə,
Sevdalı şairə bəxti yar olub.
Əllərim əlində, gözüm gözündə,
Dodağım üzündə bəxtiyar olub…

Üşüyən qəlbimin əridi buzu,
Arzular cücərdi yağan yağışla.
Tanrım, yalvarıram, günahımızı
Qəlbimizdə olan eşqə bağışla!

Bu gün həsrətimə olmuşdun qənim,
Bu gün görüşümə gəlmişdin mənim…

**08.05.2008**

## ŞİMŞƏK ÖMRÜ

Yoxsa bu eşq olacaqdır qənim ömrümə? –
Sevdaların əllərində qəlbim oyuncaq…
Şimşək kimi qəfil gəldin mənim ömrümə,
Bu sevgiyə şimşək ömrü yaraşmır ancaq…

**09.05.2008**

## HƏSRƏT BULUDLARI

Baxışlarından görürəm
Sevgi köksünə dağ çəkib.
Sənin qara gözlərinə
Həsrət buludları çöküb.

Günəş boylandıqca keçir
Kölgə sağa, kölgə sola.
İstəmirəm ki, ömrünə
Bu məhəbbət kölgə sala…

Öz titrək dodaqlarımla
Kirpiyindən yaşı dərdim.
Sən mənə sevinc, səadət,
Mən sənə göz yaşı verdim…

Gözlərin gözümə baxır,
İndicə şimşək çaxacaq.
Həsrət buludları dolub,
Yenə yağışlar yağacaq…

Boran, qar neyləyəsidi
Sevən qəlbin işığına?
Bir gün vüsal sevincimiz
Dönəcək göy qurşağına…

**10-11.05.2008**

## ƏSİR AYRILIQ YELLƏRİ

Sənin ömrün qabaqdadı,
Kədərlənmə, sev, gülümsə!
Mən sənin ilk sevgilinəm,
Sən mənim son sevgilimsən…

İçimi göynədən həsrət
Ürəyimdə yuva qurub.
Sən eşq göyündə təzəsən,
Mənə gəl-gəl deyir qürub…

Gözlərimdə dəli sevda,
Saçlarımda dən ağlayır.
Əsir ayrılıq yelləri,
Sən ağlama, mən ağlayım!

Nə vaxtacan ürəyimdə
Həsrət yükü daşıyacam?
Qəlbim əsir, heç bilmirəm
Sənsiz necə yaşayacam?!

**11.05.2008**

## QƏM KÖLGƏSİ

Hicran döyür qapımızı:
Sənin üzündə kölgə,
Mənim üzümdə kölgə…
Görüşdürüb ayırmaqla
Tanrı bizə
caza verir bəlkə?!
Bəlkə də
ilahi bir sevgi gərək imiş
ürəyimin zülmətini
əritmək,
lal sükutunu
dindirmək üçün...
Bəlkə də Tanrı səni
mənə hədiyyə göndərib,
perikib uçan ilhamımı
geriyə döndərmək üçün…

**11.05.2008**

## FÜRSƏT

Durub uzaqdan uzağa
Boylanırıq qərib-qərib.
Tanrı bizə xoşbəxt olmaq,
Həzz almaq fürsəti verib…

Belə imkan düşəcəkmi
Bir də bizim əlimizə?
Nəyə görə zülm edirik
Sevgi uman könlümüzə?

Qəlbinə yaxın buraxma
Duyğusuzu, ürəksizi.
Bu fürsəti əldən versək,
Bağışlamaz ürək bizi…

**12.05.2008**

## SEVGİNİN ƏVƏZİ

Ağlımın öyüdü hədərmiş, hədər,
Qəlbimin səsini dinləmişəm mən.
Ağlım söz kəsəndən bu vaxta qədər
Sevgi əzabıyla inləmişəm mən.

Sənin də həsrətdən göynəyir için,
Axır ki, qismətin üzünə güldü.
Heyrətə gəlmişəm, eşqimin gücü
Səni uzaq yoldan saxlaya bildi…

Üzük barmağında bir yükmüş sənin, -
Qızıl qandal imiş yoxsa qolunda?!
Gör eşqin nə qədər böyükmüş sənin,
Bu cür qurban verdin onun yolunda?

Könül istəyimi əzə bilərəm,
Üzü ağ çıxaram dardan, çətindən.
Mən sənsiz bir təhər dözə bilərəm,
Sən imtina etmə səadətindən.

Sərgərdan qalmısan yol ayrıcında,
Sevgi alov saçır sənin canında.
Qorxuram bir dəli sevda ucundan
Üzüm qara ola Tanrı yanında…

Yaralı köksümdə düyünlər, dağlar,
Oduma, közümə yazığım gəlir.
İçimdə sevgilər qəbristanı var,
Arabir özümə yazığım gəlir…

Yenəmi ayrılıq yelləri əsdi? –
Baş-başa qalmışıq əzablar ilə.
Sevgidən təmənna ummaq əbəsdi,
Sevginin əvəzi sevgidir elə…

**16.05.2008**

## SEVGİ MÜHARİBƏSİ

"Sevgi müharibəyə bənzəyir, onu başlamaq asan, dayandırmaq çətindir" – Sizi müharibəyə səsləyirəm…

**Bir məktubdan**

Başı sevgi havasıyla
dumanlanan bir qız
mənə ultimatum göndərib.
O, hələ müharibənin
nə olduğunu bilmir,
mənimsə ürəyimi
sevgi qoşunları
viranəyə döndərib…
Bəbəkləri işım-işım işıldayır,
Baxşlarında
tufan qoxusu var.
O hələ bilmir ki,
işığa can atan ürəyin
ütülmək qorxusu var.
Mənə sevgi müharibəsi
elan eləyiblər;

içindən həsrət qoşunları
keçən ürəyim
həmişə səfərbərdi,
həmişə mətindi…
Ancaq bilirəm ki,
bir qız ürəyini fəth eləmək
Ölkə fəth eləməkdən
qat-qat çətindi…

**17.05.2008**

## İŞIĞA DOĞRU

Mənə qovuşmaq arzusuyla
